
YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

05 noyabr
2026-cı il,
cümə axşamı
№ 203 (7270)
Qiyməti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

A.S. (Ante Skriptum)

İlham Əliyev: "Şablonlardan, formal xarakter daşıyan tədbirlərdən əl çəkmək vaxtı gəlib çatıb"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "AIREX 2026" sərgisində...



➡ Bax səh. 2

"Qəhrəmanlıq zirvəsi"

➡ Bax səh. 4



Azərbaycançılıq - həmişəyaşar ümummilli ideologiya

➡ Bax səh. 3

Son 20 ilin ən yüksək göstəricisi

➡ Bax səh. 5

Vətən müharibəsi haqqında dəyərli əsər...

➡ Bax səh. 3

Mənəvi məsuliyyət, tarixi ədalət

➡ Bax səh. 5

"3+3" yenidən toplanacaqmı?

➡ Bax səh. 6

2026-cı ilin seçki xəritəsi

➡ Bax səh. 7



Əbu-Dabidə sülh əldə olunacaqmı?

➡ Bax səh. 7



ABŞ-da aralıq seçkiləri qüvvələr balansını necə dəyişdi?

➡ Bax səh. 6

05 noyabr 2026-cı il, cümə axşamı № 203 (7270)

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "AIREX 2026" sərgisində...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva noyabrın 4-də Bakı Ekspo Mərkəzində keçirilən "AIREX 2026" - Birinci Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak Sərgisi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, "PASHA Property Management" şirkətinin təşkilatçılığı ilə keçirilən Birinci Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak Sərgisində 47 yerli, 14 xarici olmaqla ümumilikdə 61 şirkət iştirak edir.

Qeyd edək ki, dövlətimizin başçısının Sərəncamı ilə 2026-cı il ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan olunub. Sərginin təşkili ölkəmizdə daşınmaz əmlak, memarlıq və tikinti sahələrinin inkişafına dövlət səviyyəsində göstərilən diqqəti bir daha nümayiş etdirir. Sərgi mənzil almaq, yaşayış şəraitini yaxşılaşdırmaq və daşınmaz əmlaka investisiya yatırmaq istəyən şəxsləri, böyük investorları, şirkətlərin təmsilçilərini və sektorun peşəkarlarını vahid platformada birləşdirir, əmlak bazarının iştirakçıları arasında dialoqun genişləndirilməsi, təcrübə mübadiləsi və yeni əməkdaşlıq imkanlarının müzakirəsi baxımından mühüm rol oynayır.

x x x

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "PMD Group" şirkətinin stendi ilə tanış oldular.

Məlumat verildi ki, "PMD Group" 2013-cü ildən bəri daşınmaz əmlaka investisiya, layihələrin inkişafı və idarə edilməsi istiqamətində fəaliyyət göstərir. Şirkət yaşayış, kommersiya və ictimai-sosial təyinatlı layihələr icra edir. "PMD Group" layihələri konsepsiyadan tikintiyə və idarəetməyə qədər əhatə edən dörd istiqamət üzrə xidmət göstərir. Tikinti və layihələrin idarə edilməsi, memarlıq və dizayn, daşınmaz əmlakın idarə olunması, satışı və icarəsi, logistika və anbar xidmətləri şirkətin fəaliyyət istiqamətlərinə daxildir. "PMD Group" və ona daxil olan şirkətlər tərəfindən paytaxtdakı Zəfər parkının inşası həyata keçirilib, Bakı və Abşeronla yanaşı, işğaldan azad edilmiş rayonlarımızda da bir sıra layihələr icra olunub və hazırda bu işlər davam edir.

x x x

Bildirildi ki, "PASHA Holding"in tərkibinə daxil olan "PAŞA Real Estate Qrup" daşınmaz əmlaka investisiya qoyuluşu, layihələrin inkişafı və əmlak aktivlərinin idarə edilməsi sahələrində fəaliyyət göstərir. Qrup Azərbaycanda və daha beş ölkədə - Türkiyə, ABŞ, Monteneqro, Gürcüstan və Özbəkistanda nüfuzlu beynəlxalq brendlərlə əməkdaşlıq çərçivəsində layihələr həyata keçirir. Azərbaycanın aparıcı daşınmaz əmlak şirkətlərindən biri olan "PAŞA Real Estate Qrup" beynəlxalq standartlara uyğun layihələri ilə Bakının müasir memarlıq simasının formalaşmasına töhfə verir. Onun layihələri tanınmış beynəlxalq memarlıq şirkətləri ilə əməkdaşlıq çərçivəsində reallaşdırılır. Qrupun fəaliyyət istiqamətləri daşınmaz əmlak layihələrinin inkişafını, hotel, yaşayış və ticarət obyektlərinin idarə olunmasını, həmçinin beynəlxalq hotel brendləri ilə əməkdaşlığı əhatə edir.

x x x

Dövlətimizin başçısı, birinci xanım və qızları "Sea Breeze"in stendinə baxdılar, həyata keçirilmiş işlər və perspektiv layihələrlə tanış oldular.

Qeyd edildi ki, "Sea Breeze" 1000 hektardan çox ərazini əhatə edir. Gələcəkdə isə bu rəqəmin 1850 hektaradək artırılması nəzərdə tutulur. Burada tamamlanmış və həyata keçirilən layihələrin sayı 50-dən artıqdır. "Sea Breeze"də artıq 60 mindən çox rezident (sakin) var. Bütövlükdə isə layihə tam icra olunduqdan sonra "Sea Breeze"də 500 min sakin yaşayacaq.

Ərazidə icra edilən əhəmiyyətli layihələrdən biri 200 hektardan çox sahəsi olan "Fire Island" adasıdır. Layihə çərçivəsində beynəlxalq standartlara uyğun müasir infrastrukturun yaradılması planlaşdırılır. Buraya uzunluğu təxminən 5,5 kilometr olan və 18 döngədən ibarət Formula 1 yarış trekinin inşası da daxildir.

"Sea Breeze"in flaqman layihəsi "Caspian Dream Liner"dir. Bu, süni yarımadada yerləşən apart-hotel layihəsidir.

Təxminən 50 hektar ərazini əhatə edən "Aypara" "Sea Breeze"in ən böyük və diqqətçəkən layihələrindəndir. Burada beşulduzlu hotellərin inşası nəzərdə tutulur. Bununla yanaşı, ərazidə brend mağazaların yerləşəcəyi ticarət küçələri, çoxfunksiyalı arena, həmçinin hündürlüyü 323 metr olacaq qüllə inşa ediləcək.

Əsas məqsəd "Sea Breeze"in beynəlxalq səviyyəli müasir şəhər kimi inkişafını davam etdirmək, xarici investisiyaları cəlb etmək, yeni iş yerləri yaratmaq, o cümlədən Azərbaycanın turizm və iqtisadi potensialının inkişafına töhfə verməkdir.

x x x

Həmçinin məlumat verildi ki, 15 ilə yaxın təcrübəsi olan "Baku City Residences" şirkəti yaşayış və kommersiya məqsədilə daşınmaz əmlakın inşası və satışı üzrə fəaliyyət göstərir. Şirkətin layihələrində müasir memarlıq, əlverişli yerləşmə və əhatəli infrastruktur birləşir. Layihələrin icrasında keyfiyyət, dizayn və müasir şəhər həyatının tələbləri əsas götürülür. İndiyədək şirkət tərəfindən bir neçə layihə reallaşdırılıb. Gələcəkdə "Bakı Ağ Şəhər"in sahilyanı məhəlləsində "Baku Bay" layihəsinin inşası nəzərdə tutulur.

x x x

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva sərgidə Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) stendi ilə də tanış oldular.

Diqqətə çatdırıldı ki, Agentlik ölkədə vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə yaradılıb. Onun fəaliyyətinin əsas istiqaməti aztəminatlı və ortagəlirli ailələr üçün əlçatan, ekoloji təmiz və enerjiyə qənaət edən yaşayış komplekslərinin inşasıdır.

MİDA fəaliyyəti dövründə respublika üzrə ümumilikdə 20 layihəni icra edib. Bunlardan 7-si Bakıda, 3-ü Qarabağda, digər 10-u isə Gəncə, Abşeron, Sumqayıt, Lənkəran, Şirvan, Yevlax, Naxçıvan, Şəmkir və Salyandadır. Layihələrə binalarla yanaşı, məktəblər, bağçalar, tibb mərkəzinin inşası da daxildir.

Agentlik tərəfindən güzəştli mənzil layihələrindən Bakıda 5, regionlarda isə 6 layihə tamamlanıb. Hazırda agentlik paytaxt və bölgələrimizi əhatə edən 6 layihədən 3-nün icrasına başlayıb, 3 yaşayış kompleksi isə layihələndirmə mərhələsindədir.

x x x

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Əliyeva "Fortis Development" şirkətinin stendi ilə tanış oldular.

Bildirildi ki, şirkət yaşayış və kommersiya obyektlərinin tikintisi ilə yanaşı, tarixi və memarlıq abidələrinin bərpası, bina fasadlarının yenilənməsi və ictimai məkanların abadlaşdırılması ilə məşğul olur və 10 ildən artıq təcrübəsi var. İndiyədək şirkət tərəfindən paytaxtda Şəhriyar və Səadət parklarının abadlaşdırılması, Balaxanı qəsəbəsində abadlıq işləri, Mərdəkan qəsəbəsində Pir Həsən ziyarətgahının və Əmircan qəsəbəsində İmam məscidinin təmir-bərpası, COP29 ərəfəsində Bakıda 40-dan çox binanın bərpası həyata keçirilib. Şirkət tərəfindən mədəni irs layihələri də icra edilib.

x x x

Memarlıq, planlaşdırma və interyer dizaynı sahələrində fəaliyyət göstərən "Chapman Taylor" şirkəti 1959-cu ildə Londonda yaradılıb. "Chapman Taylor" beynəlxalq memarlıq şirkəti kimi 100-dən çox ölkədə layihələr həyata keçirib, 300-dən çox memarlıq mükafatı qazanıb. Şirkət ölkəmizdə də bir sıra layihələr icra edib. Şuşa, Cəbrayıl, Xankəndi və Naxçıvan şəhərlərinin Baş planlarının müəllifi olan "Chapman Taylor" bu şəhərlərlə yanaşı, Bakı, Gəncə, Ağdam, Füzuli və Qusarda bir çox yaşayış və ictimai binaların layihələndirilməsini həyata keçirib.

Şirkət tərəfindən Şuşa, Cəbrayıl, Xankəndi, Füzuli və Ağdamda yaşayış məhəllələrinin inşası, mövcud binaların fasadlarının yenilənməsi və digər sosial layihələr icra olunub, bir neçə layihə isə icra mərhələsindədir.

x x x

Birləşmiş Ərəb Əmirliklərinin Sənaye Şəhərləri və Texnologiya Zonaları üzrə İdarəsi (MODON) də sərgidə iri ekspozisiya ilə təmsil olunur. Şirkət innovasiyalara yönəlmiş fəaliyyət sahəsində ixtisaslaşıb, istehsal proseslərinin rəqəmsallaşdırılması və müasir standartlara keçid istiqamətində müxtəlif proqramlar reallaşdırır. Təklif edilən təşviq mexanizmləri arasında məsləhət xidmətləri, maliyyələşdirmə proqramları, yerli məzmunun inkişafına dəstək tədbirləri, həmçinin sənaye infrastrukturu və hazır istehsal sahələrinin təqdim edilməsi yer alır. Şirkət sərgidə Böyükşor gölü ərazisinin inkişaf planının konsepsiyasını təqdim edib.

x x x

"Bakı Ağ Şəhər" layihəsi dünyada müasir şəhərsalma konsepsiyasının ən parlaq nümunələrindən biridir. İcrasına Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2011-ci il dekabrın 24-də başlanılan layihə ekoloji cəhətdən təmiz, dayanıqlı və "Ağıllı şəhər" prinsipləri əsasında hazırlanıb. Burada şəhərsalmanın ən son yenilikləri tətbiq olunub. Əvvəllər "Qara şəhər" kimi tanınan bu ərazi 150 ildən çox müddətdə neft sənayesi tullantıları ilə çirklənib. Azərbaycan Prezidentinin təşəbbüsü ilə isə burada dünya miqyasında nadir ekoloji layihə icra olunaraq müasir yaşayış massivi yaradılıb. Yaşayış binaları MDB ölkələri arasında ilk dəfə olaraq BREEAM - beynəlxalq ekoloji sertifikatlaşdırma standartına və CRREM - karbon risklərinin qiymətləndirilməsi tələblərinə uyğun layihələndirilib. Geniş daxili küçələri, yaşıllıq sahələri, müasir beynəlxalq heykəltaraşlıq nümunələri ilə seçilən "Bakı Ağ Şəhər" paytaxtın iş, yaşayış və istirahət üçün ən müasir məkanına çevrilib.

"Bakı Ağ Şəhər" layihəsinin inkişafı çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə birlikdə neft sənayemizin zəngin tarixinə, onun dünya energetika sektorunda aparıcı roluna həsr olunmuş yeni muzey binası konsepsiyası hazırlanıb. Muzeydə keçmişdə ekoloji fəlakətlə üz-üzə olan "Qara şəhər"in müasir və dayanıqlı "Baku White City" şəhər məkanına transformasiyanın tarixi nümayiş olunacaq. Binada sərgi zalı, kitabxana, ofis otaqları, restoran və kafelər nəzərdə tutulur. Layihə çərçivəsində şəhərə və sahilə mənzərəsi olan 90 metrlik müşahidə qülləsi yaradılacaq.

"Bakı Ağ Şəhər" layihəsinin əsas rəmzlərindən biri olan "Gilavar" kompleksi ictimai məkanları, əyləncə obyektlərini, iaşə müəssisələrini, yaxta klublarını və təxminən 185 metr hündürlüyündə 49 mərtəbəli yaşayış binasını birləşdirir.

Layihə "ADEC" şirkəti və "Bürc-Xəlifə" layihəsinin müəllifi, hündürmərtəbəli binaların memarlığı üzrə dünya lideri Amerikanın məşhur SOM bürosu ilə birgə hazırlanıb.

"Ağ şəhər", eyni zamanda, incəsənət və mədəniyyət həvəskarlarının da sevimli məkanına çevrilib. Belə ki, dünyanın tanınmış heykəltaraşları öz əsərlərinin burada quraşdırılmasında maraqlıdırlar. Bu xüsusda məşhur amerikalı heykəltaraş Robert Sammers tərəfindən yaradılan "Qarabağ atları" heykəltaraşlıq kompleksini, Zaman meydanında məşhur rəssam Konstantin Krik tərəfindən məhz "Bakı Ağ Şəhər" üçün hazırlanmış 7 saatdan ibarət "Seven Public Clocks" kompozisiyasını, məşhur heykəltaraş Cozef Klibanskinin "Buludların üstündə" adlı bürünc kompozisiyasını, müasir britaniyalı heykəltaraş Saymon Qadcenin "Nur axtarışında" heykəlini qeyd etmək olar.

x x x

"Housing Development Corporation" (HDC) Maldivin məkan və iqtisadi transformasiyasını aparan əsas dövlət müəssisəsidir. HDC "ağıllı", inklüziv və dayanıqlı şəhərlərin salınmasında iştirak edir, əsas inkişaf layihələrinin idarəetməsini həyata keçirir. Şirkətin stendində logistika üçün mərkəzləşdirilmiş Sənaye Kəndi, yüksəktutumlu Cənub Limanı Ticarət Zonası və digər layihələr təqdim olunur. "Housing Development Corporation" sərgidə iştirak etməklə turizmdən əlavə, Maldivin kommersiya daşınmaz əmlakını, yaşıl texnologiyaları, "ağıllı" kommunal infrastrukturu və dəniz ticarəti sahələrindəki investisiya imkanlarını təqdim edir.

x x x

"Silk Development" Gürcüstanda yaşayış və hotel layihələri həyata keçirən aparıcı şirkətdir. Batumidəki Silk Towers şirkətin əsas layihələrindəndir. Şirkətin stendində yaşayış, lüks hotel və çoxfunksiyalı layihələrdən ibarət portfel, dünyada tanınmış memarların layihələndirdiyi obyektlər, uzunmüddətli dəyərə hesablanmış və yüksəkgəlirli mülkiyyət modellərini təqdim edilir. "Silk Development"in bu sərgidə iştirakda məqsədi Xəzər regionunda fəaliyyətini genişləndirmək, investorlar, strateji tərəfdaşlar və brokerlərlə birbaşa əlaqə qurmaqdan ibarətdir.

x x x

Çoxfunksiyalı yaşayış kompleksi olan "Luna Garden" Bakının dinamik inkişaf edən ərazilərindən birində, metronun "Koroğlu" stansiyasının və Böyükşor gölünün yaxınlığında yerləşir. "Koroğlu" stansiyasının yeni çıxışı birbaşa kompleksin ərazisindədir ki, bu da sakinlərin rahatlığının təmin edilməsində mühüm rol oynayır. Layihə 6,7 hektar ərazini əhatə edir və 9 binadan ibarətdir. Ərazinin 60 faizi yaşıllıq sahələri üçün nəzərdə tutulub.

x x x

2003-cü ildən Azərbaycanın tikinti və daşınmaz əmlak sektorunda fəaliyyət göstərən "Kristal" Bakı və Sumqayıt şəhərlərində müasir standartlara cavab verən, yüksəkkomfortlu yaşayış komplekslərinin inşasını həyata keçirir. Şirkət öz layihələrində məktəb, uşaq bağçası, park, ticarət və digər sosial infrastruktur obyektlərini bir araya gətirən "şəhər içində şəhər" konsepsiyasını əsas götürür. Bu yanaşma sakinlər üçün rahat, funksional və müasir yaşayış mühitinin formalaşdırılmasına xidmət edir. "Kristal"ın bu istiqamətdə həyata keçirdiyi layihələr sırasında "City Garden Nərimanov", "Park Yasamal" və "Highland Residence" kimi yaşayış kompleksləri xüsusi yer tutur.

"Kristal" fəaliyyətində innovativ tikinti texnologiyalarının tətbiqinə, enerji səmərəliliyinin artırılmasına, ekoloji məsuliyyətə və dayanıqlı şəhərsalma prinsiplərinə xüsusi önəm verir. Sərgidə şirkətin təqdim etdiyi əsas yeniliklərdən biri müasir panel fasad sistemidir. Bu texnologiya yüksək istilik izolyasiyası, enerji itkilərinin azaldılması və binaların enerji səmərəliliyinin yüksəldilməsi baxımından mühüm üstünlüklərə malikdir.

x x x

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qarabağ Dirçəliş Fondunun stendinə də baxdılar.

Qeyd olundu ki, Fond işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasına maliyyə dəstəyi göstərir, investisiya cəlb edir, dövlət-özəl tərəfdaşlığını təşviq edir və maarifləndirmə layihələri həyata keçirir. Fondun sərgidə iştirakının məqsədi onun fəaliyyət istiqamətləri və işğaldan azad edilmiş ərazilərdə aparılan irimiqyaslı bərpa-quruculuq işləri barədə ictimaiyyətin məlumatlılığının artırılması, ianəçilik mədəniyyətinin təbliğidir.

"Qarabağın Dirçəlişi: Azərbaycan İntibahının Hekayəsi" innovativ kitab layihəsi də maraqla qarşılanır. Fondun sifarişi ilə hazırlanmış kitabda Qarabağ həqiqətləri və Azərbaycan Prezidentinin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri əks olunub.

Stenddə, həmçinin "Qarabağın inciləri" - Qarabağın tarixi-mədəni irsini, bərpa olunan abidələri və Zəfərdən sonra inşa edilmiş infrastruktur obyektlərini tanıdan rəmzi maarifləndirici oyun, "Qarabağ quiz" - Qarabağın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri və Vətən müharibəsi haqqında interaktiv viktorina və beynəlxalq ictimaiyyətin diqqətini mina təhlükəsinə yönəltmək məqsədilə Fondun sifarişi ilə hazırlanan "Ölümcül Miras" sənədli filmi barədə də məlumat verilir.



K.S.İmanovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə və əqli mülkiyyət hüquqları sahəsinin inkişafında böyük xidmətlərinə görə Kamran Sultan oğlu İmanov "Şərəf" ordeni ilə təltif edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 noyabr 2026-cı il

Azərbaycançılıq - həmişəyaşar ümummilli ideologiya

Biz tarixdə bu və ya digər ölkədə elan edilən hansısa bir təmtəraqlı ideologiyanın öz ömrünü elə beşikdəcə başa vurduğunun şahidi olmuşuq. Bu qəbildən olan ideologiyaların həyat qabiliyyətindən məhrum qalması onların milli maraqlara və zamanın çağırışlarına uyğun təməl prinsiplərinin olmaması ilə bağlıdır. Tarixi təcrübə göstərir ki, inzibati resurslar tükəndikdə cəmiyyətlərə sırınan ideologiyalar da tarixin arxivinə göndərilir.

Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, müstəqil dövlətimiz və onun azərbaycançılıq kimi həmişəyaşar ideoloji əsası var. Bu ideologiya xalqımızın keçmişdən gələn zəngin dəyərlərinə əsaslanır və ölkəmizin gələcəyinə hesablanıb. Buna görə də zaman məhdudiyyəti tanımır. Nə qədər ki, Azərbaycan dövləti var, bu ideologiya da hər bir azərbaycanlının yaşam fəlsəfəsinin əsasında dayanacaq, bizi istiqamətləndirəcək, bizi bir-birimizə və Vətənimizə daha möhkəm tellərlə bağlayacaq.



Ulu Öndərin hər bir azərbaycanlı üçün örnək olan həyat və fəaliyyəti - böyük vətənsevərlik nümunəsi

Qloballaşma şəraitində xalqımızın yad təsirlərə müqavimət gücünü artıran , milli identikliyimizi təmin edən, ölkəmizin dünyada sayılıb-seçilənn dövlətlər səviyyəsinə yüksəlməsində mühüm rol oynayan azərbaycançılıq ideologiyasının əsasını Ümummilli Liderimiz Heydər Əliyev qoyub. Ulu Öndərin qənaəti belə idi ki, hər bir azərbaycanlı Vətənin ona nə verdiyi barədə deyil, onun özünün Vətənə nə verdiyi barədə düşünməlidir. Azərbaycançılıq ideologiyası da bu fəlsəfə əsasında formalaşıb.

Ümummilli Liderimizin həyatı və fəaliyyəti də məhz bu prinsip üzərində qurulmuşdu. Onun tərcümeyi-halı, keçdiyi yol azərbaycanlılar üçün əsl örnəkdir, həyat məktəbidir. Bütün varlığı ilə doğma Azərbaycana bağlı olan dahi şəxsiyyət Heydər Əliyevin kritik məqamlarda xalqına dayaq durması, Vətənin köməyinə gəlməsi, həmişə insanların qəlbində ümid işığı yandırması böyük vətənsevərlik nümunəsidir. O, nə edirdisə, Azərbaycan naminə edirdi. Tariximizə qara səhifə kimi yazılan 20 Yanvar faciəsi zamanı Heydər Əliyevin ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməsi dahi şəxsiyyətin xalqa və Vətənə bağlılığının real nümunəsidir. O dövrdə imperiya qüvvələri respublikamızın ətrafında bir informasiya blokadası qurmuşdular. Bakıda, regionlarımızda törədilən qanlı hadisələr barədə dünyaya saxta məlumatlar ötürülürdü, azadlıq naminə çarpışan, Vətən naminə sinələrini güllə yağışına sipər edən mərd oğul və qızlarımız "terrorçular" kimi qələmə verilirdi. Belə bir şəraitdə Heydər Əliyev basqılara, təhdidlərə, özünün və ailə üzvlərinin həyatına yarana biləcək təhlükələrə məhəl qoymayaraq imperiyanın mərkəzində bəyanat verdi, 20 Yanvar faciəsi ilə bağlı gerçəkləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Onun bu davranışı, cəsarəti hər bir azərbaycanlı üçün doğma Vətənə bağlılıq, onu necə sevmək və qorumaq nümunəsi idi.

Böyük siyasətçi Heydər Əliyevin həyatında xalqı birliyə sövq edən belə nümunələr saysız-hesabsızdır. Zamanında Naxçıvanda Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin atributlarının bərpa edilməsi, keçmiş ittifaqın saxlanılması ilə bağlı referenduma "yox" deyilməsi də böyük cəsarət tələb edirdi. Heydər Əliyev Azərbaycanın xoşbəxt gələcəyini respublikamızın müstəqillik qazanmasında görürdü və bu ali məqsəd naminə hər cür fədakarlıq göstərməyə hazır idi. Müdrik dövlət xadimi Heydər Əliyev ötən əsrin doxsanıncı illərinin əvvəllərində xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıdanda ilk növbədə vətənpərvərliyi, ölkəmizin, xalqımızın sabahı naminə qətiyyətli addımlar atması, yeganə düzgün yol seçməsi sayəsində insanları Öz ətrafında birləşdirməyə və respublikanı düşdüyü çətin durumdan çıxarmağa, cəmiyyətdə sabitlik, vətəndaş həmrəyliyi yaratmağa nail oldu. Tezliklə ölkəmiz qarşıdurmalardan qurtuldu. Ulu Öndərin çox böyük səyləri sayəsində bərqərar olan həmrəylik respublikanın potensialını tərəqqiyə, taleyüklü məsələlərin həllinə, ümumi rifaha yönəltməyə imkan verdi.

Birlikdən, həmrəylikdən güc alaraq qələbələrə doğru

Azərbaycan tarixən çoxmədəniyyətli diyar olub. Fərqli milli, dini kimliyə malik insanlar burada yan-yana yaşayaraq həyatlarını davam etdiriblər. Tarixdən gələn tolerantlıq ənənəsi bu gün də yaşayır. Dünyada birgəyaşayışla bağlı ciddi problemlər yarandığı bir dövrdə Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev davamlı olaraq multikulturalizmə çağırışlar edir.

Eyni zamanda, azərbaycançılıq ideologiyasının təməl prinsiplərindən olan çoxmədəniyyətlilik Azərbaycanın milli gücünü artırır. Biz ölkəmizdə yaşayan xalqların birliyindən, həmrəyliyindən güc alaraq qələbələrə doğru irəliləyirik. Dünya bu birliyin möhtəşəm gücünə növbəti dəfə 44 günlük Vətən müharibəsində şahidlik etdi.

Bununla bağlı aşağıdakı nümunə ibrətamizdir. Müharibə günlərində yerli KİV-lər döyüşlərdə şücaətlər göstərən Məhəmməd İbayev və Andrey Antonovu "eyni məhlədən olan iki döyüşçü" kimi təqdim ediblər. Müharibə başlayanda minlərlə Azərbaycan gənci kimi könüllü olaraq ordu sıralarına yazılan Məhəmməd və Andrey Bakının Binəqədi rayonundakı Biləcəri qəsəbəsində qonşu idilər. Hər ikisi Biləcəri qəsəbəsindəki şəhid Vüqar Əvəzovun adını daşıyan məktəbin məzunu olublar. Məhəmməd 20, Andrey 21 yaşında idilər. Onlar vaxtilə Azərbaycan Ordusunun sıralarında Goranboy rayonunda "N" saylı hərbi hissədə əsgəri xidmət keçiblər. Milliyyətcə rus olan Andrey Antonov Vətən müharibəsi başlayanda "Azərbaycan mənim də vətənimdir" deyərək könüllü şəkildə ordu sıralarına yazılıb. O, bu zaman ön xətdə döyüşmək istəyində israr edib. 2020-ci il sentyabrın 29-da Füzuliyə yollanan Andrey Antonov burada bir sıra yaşayış məntəqələrinin işğaldan azad olunmasında iştirak edib. Sonra o, hərbi döyüş maşınlarının sükanı arxasında Cəbrayıl rayonunda gedən döyüşlərə qatılıb və ayrı-ayrı əməliyyatların uğurla həyata keçirilməsində yüksək fəallıq göstərib.

Döyüş yoluna Füzulidən başlayan Məhəmməd İbayev bu rayon işğaldan təmizləndikdən sonra Cəbrayıl, Ağdərə, Xocavənd və Hadrutun kənd və qəsəbələrinin, habelə qədim Şuşa şəhərinin işğaldan azad edilməsində şücaətlər göstərib. Keçdiyi cəbhə yollarında iki dəfə yaralansa da, müalicədən sonra dərhal ön cəbhəyə döyüşçü yoldaşlarının yanına qayıdıb.

I və II Qarabağ müharibələrində Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə canlarını fəda edən gənclərin xatirəsi hər zaman böyük ehtiramla yad edilir. Bu gün paytaxt Bakıda və bölgələrdə çoxlu sayda məktəb, küçə qəhrəman şəhidlərimizin adını daşıyır, onların xatirəsinə şeirlər, mahnılar ithaf olunub. Əlamətdar haldır ki, burada da heç bir ayrı-seçkiliyə yol verilmir, ölkəmizin ərazi bütövlüyü uğrunda şücaətlər göstərən bütün xalqların təmsilçilərinin xatirəsinə eyni dərəcədə hörmət və ehtiram göstərilir.

Mübariz ABDULLAYEV

Vətən müharibəsi haqqında dəyərli əsər...

Amerikalı müəlliflər "Qarabağ uğrunda müharibə: Strategiya, texnologiya və qələbə" kitabında ordumuzun gücündən bəhs ediblər

Azərbaycan xalqı olaraq bugünlər milli tariximizin şanlı səhifəsi olan Zəfər Gününun altıncı ildönümünü qeyd edirik. Bu günün xalqımızın və dövlətimizin taleyində müstəsna yeri var. Çünki 8 Noyabr Zəfər Günü Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, gücünün və qüdrətinin rəmzidir. Xalqımız bu şanlı zəfərimizlə hər zaman iftixar hissi keçirir.

44 günlük müharibə dövründə xalqımızın birliyi, ordumuzun gücü və döyüş əməliyyatları dünyada da geniş əks-səda doğurmuşdu. Təsadüfi deyil ki, nüfuzlu əcnəbi hərbi analitiklər Azərbaycan ordusunun döyüşlərdəki hərbi strategiyasını "XXI əsrin müharibəsi" adlandırıblar. Ümumiyyətlə, bu müharibə ilə bağlı xarici ölkələr tərəfindən də sənədli filmlər çəkilib, kitablar yazılıb. Bu proses davam etməkdədir. Belə ki, noyabrın 3-də Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi (BMTMM) və Bakı Kitab Mərkəzinin birgə təşkilatçılığı ilə Qarabağ münaqişəsinin tarixi köklərini, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı qələbənin əsas amillərini təhlil edən "Qarabağ uğrunda müharibə: Strategiya, texnologiya və qələbə" ("The War for Karabakh: Strategy, Technology, and Victory") kitabının təqdimat mərasimi keçirilib.





Tədbirdə kitabın amerikalı müəllifləri - ABŞ Ordusunun ehtiyatda olan polkovniki Liam Kollinz və mayor Con Spenser nəşrin hazırlanma prosesi, əsas tədqiqat istiqamətləri və gəldikləri nəticələr barədə ətraflı məlumat veriblər. Bildirilib ki, kitab təxminən iki il ərzində hazırlanıb. Liam Kollinz Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı qələbədə hərbi potensialın gücləndirilməsinin, orduda aparılan islahatların və döyüş qabiliyyətinin artırılmasının mühüm rol oynadığını qeyd edib. Vurğulayıb ki, ordunun effektivliyi yalnız silah sistemlərinin sayından deyil, onların keyfiyyətindən və düzgün tətbiqindən də asılıdır. O, həmçinin 44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin şəhər döyüşlərinə hazırlıqsız olmasının və əks-hücumları düzgün planlaşdıra bilməməsinin onların müdafiə imkanlarını zəiflətdiyini deyib. Azərbaycan Ordusunun sürətli irəliləyişi qarşısında Ermənistan qüvvələrinin daha çox dağlıq ərazilərdə mövqe tutmağa çalışdığını qeyd edib.

Con Spenser isə vurğulayıb ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın hərbi əməliyyatları yalnız pilotsuz uçuş aparatlarının tətbiqi ilə deyil, mürəkkəb quru əməliyyatları, qoşunların koordinasiyası və düşmənin yanlış istiqamətə yönəldilməsi ilə də səciyyələnib. Qeyd edib ki, xüsusilə genişmiqyaslı aldatma əməliyyatının planlaşdırılması və icrası müasir müharibə təcrübəsi baxımından mühüm əhəmiyyət daşıyır. "Azərbaycan Ordusu müxtəlif istiqamətlərdə döyüş əməliyyatlarını davam etdirərkən, bəzi hallarda müdafiə xəttini yarmaq mümkün olmadıqda alternativ planlara keçib. Düşməni yanlış istiqamətdə əsas hücumun həyata keçirildiyinə inandırmaq məqsədi daşıyan aldatma əməliyyatı bu baxımdan xüsusi diqqət çəkir. Qarabağda tətbiq olunan bu yanaşma müasir hərb tarixində aldatma əməliyyatlarının genişmiqyaslı və çoxşaxəli ola biləcəyini göstərir. Əməliyyat düşmənin diqqətini əsas istiqamətdən yayındırmaq, müdafiə qüvvələrinin yerləşməsinə təsir göstərmək və digər istiqamətlərdə hərbi fəaliyyət üçün imkan yaratmaq baxımından əhəmiyyətli olub", - deyə müəllif əlavə edib.

Təqdimat mərasimindən sonra müəlliflərin iştirakı ilə media brifinqi keçirilib. Nəşr Azərbaycanın 44 günlük müharibədə əldə etdiyi qələbəyə dair xaricdə hazırlanmış ilk genişmiqyaslı və sistemli hərbi tədqiqatlardan biridir. Araşdırmaya hərbi tədqiqatlar sahəsində ixtisaslaşmış Vest-Point Hərbi Akademiyasının mütəxəssislərinin də cəlb edilməsi əsərin elmi və analitik əhəmiyyətini daha da artırır. Əsərdə Qarabağ münaqişəsinin tarixi kökləri və Birinci Qarabağ müharibəsindən başlayaraq Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbəyə və sonrakı hərbi-siyasi proseslərə qədər geniş dövr əhatə olunur. Kitabda Azərbaycanın genişmiqyaslı müharibəyə hazırlıq strategiyası (Grand Strategy), "Dəmir Yumruq" əməliyyatı və 44 günlük Vətən müharibəsinin əsas mərhələləri, Hadrut, Əmirvarlı, Füzuli, Zəngilan və Qubadlı rayonları istiqamətində Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyatlar, Şuşa uğrunda döyüşlər, eləcə də 2023-cü ildə keçirilmiş antiterror tədbirləri ayrı-ayrı bölmələrdə təhlil edilir.

Kitabın diqqətçəkən məqamlarından biri Azərbaycanın qələbəsinin yalnız pilotsuz uçuş aparatlarının (PUA) tətbiqi ilə əlaqələndirilməsi barədə geniş yayılmış fikrin tənqidi təhlilidir. Müəlliflər hesab edirlər ki, qələbənin arxasında daha geniş amillər kompleksi - milli güc, dövlət quruculuğu, iqtisadi inkişaf, düzgün hərbi planlaşdırma və müasir döyüş konsepsiyalarının mənimsənilməsi dayanır. Əsərdə Azərbaycanın hərbi uğurunun əsas səbəblərindən biri kimi "müasir döyüş sistemlərinin tətbiqi" konsepsiyasına dərindən yiyələnməsi göstərilir. Bu konsepsiya mövqelərin maskalanmasını, qüvvələrin səpələnməsini, kiçik bölmələrin manevr imkanlarından səmərəli istifadəni, düşmənin atəş vasitələrinin susdurulmasını və müxtəlif qoşun növlərinin birgə fəaliyyətinin əlaqələndirilməsini əhatə edir.

Tədqiqat təxminən 100 hərbi və mülki mütəxəssislə aparılmış müsahibələrə əsaslanır. Bununla yanaşı, müəlliflər əsas döyüşlərin baş verdiyi ərazilərə səfərlər edərək həmin məkanlarda yerində araşdırmalar aparıblar. Kitab müəlliflərinin gəldiyi əsas qənaət ondan ibarətdir ki, hərbi qələbə yalnız döyüş meydanında qazanılmır. Belə bir qələbənin əldə olunmasının arxasında milli güc, ardıcıl dövlət və hərbi quruculuq siyasəti, iqtisadi potensial, effektiv kommunikasiya strategiyası və ideoloji fəaliyyət kimi mühüm amillər dayanır.

Kitabda Azərbaycanın Ali Baş Komandanı, Prezident İlham Əliyevin strategiyası, ölkə daxilində və beynəlxalq müstəvidə kommunikasiya fəaliyyətinin fəallığı, eləcə də dezinformasiyaya qarşı mübarizəsi xüsusi vurğulanır.

Qeyd edək ki, müəlliflər kitabın nəşrindən əvvəl 44 günlük müharibə zamanı Hadrut və Şuşa şəhərləri uğrunda döyüşlərin gedişinə dair ətraflı araşdırmalar aparıb və bu mövzuda məqalələr dərc etdiriblər. Kitabın müəlliflərindən istefada olan polkovnik Liam Kollinz "Madison Policy Forum"un direktoru, "New America" təşkilatının Gələcəyin Təhlükəsizliyi Proqramının baş elmi işçisi və Yaxın Şərq İnstitutunun fəxri hərbi əməkdaşıdır. O, ABŞ Ordusunun Xüsusi Təyinatlı Qüvvələrində xidmət edib və polkovnik rütbəsində ehtiyata buraxılıb. 2016-2018-ci illərdə Ukrayna üzrə ABŞ-ın baş müdafiə müşavirinin icraçı köməkçisi vəzifəsində çalışıb. Prinston Universitetində dövlət idarəçiliyi üzrə magistr və fəlsəfə doktoru elmi dərəcələrini alıb.

Digər müəllif, istefada olan mayor Con Spenser Vest-Point Hərbi Akademiyasının Müasir Müharibə İnstitutunda şəhər döyüşləri üzrə kafedra rəhbəri, həmçinin Şəhər Müharibəsi Layihəsinin həmsədridir. ABŞ Ordusunda 25 ildən artıq xidmət edib və İraqda iki dəfə döyüş əməliyyatlarına qatılıb. O, şəhər döyüşləri üzrə dünyanın aparıcı mütəxəssislərindən biri hesab olunur.

Nardar BAYRAMLI

“Qəhrəmanlıq zirvəsi”

















Noyabrın 4-də Yeni Azərbaycan Partiyası (YAP) və “Modern İnkişaf və Ailə” İctimai Birliyinin birgə təşkilatçılığı ilə YAP Veteranlar Şurasının üzvü Zərifə Quliyevanın müəllifi olduğu “Qəhrəmanlıq zirvəsi” kitabının təqdimat mərasimi keçirilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov bildirib ki, müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası əsasında uğurla inkişaf edir: “Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlərin şah əsəri, heç şübhəsiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən torpaqlarımızın işğaldan azad edilməsi və suverenliyimizin bərpası oldu. Tarixi Zəfərin əldə olunmasında xalq-lider birliyi, şəhidlərin fədakarlığı və qazilərin qəhrəmanlığı mühüm rol oynayıb. Təqdim olunan nəşrdə də məhz bu məqamlardan geniş bəhs olunur”.

Hikmət Məmmədov qeyd edib ki, Azərbaycanın möhtəşəm Zəfər yolunun hərtərəfli tədqiqi və geniş ictimaiyyətə çatdırılmasında müxtəlif kütləvi nəşrlərin, o cümlədən elmi-tədqiqat işləri, əsərlər, monoqrafiya və kitabların da mühüm rolu var. O, “Qəhrəmanlıq zirvəsi” kitabının Azərbaycana möhtəşəm nailiyyətlər bəxş edən Heydər Əliyev ideya-siyasi xəttinin və Prezident İlham Əliyevin varislik prinsipinə əsaslanan siyasi kursunun öyrənilməsi və yeni nəslə aşılanması, müasir müstəqil və qalib Azərbaycanın zəngin və şərəfli inkişaf yolunun araşdırılması baxımından dəyərli mənbə olduğunu bildirib.

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Ulu Öndər Heydər Əliyevin siyasi kursunun milli-mənəvi dəyərlərə, dövlətçilik ənənələrinə və müasir dövrün tələblərinə uyğun davam etdirilməsinin ölkəmizin inkişafına mühüm töhfə verdiyini deyib. O vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın iqtisadi, siyasi və hərbi qüdrətinin artması nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunub: “2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfər və 2023-cü ildə mütləq suverenliyin təmini Ulu Öndərin müəyyənləşdirdiyi dövlətçilik strategiyasının məntiqi nəticəsidir”.

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, təqdim olunan kitab şəhidlərin müqəddəs xatirəsinə, Vətən uğrunda sağlamlığını itirən qazilərin şərəfli mübarizə yoluna ehtiramın ifadəsidir: “Belə nəşrlər gənc nəslin milli-mənəvi dəyərlərə bağlılıq, Vətənə sevgi və dövlətçilik ruhunda tərbiyə olunmasında, tarixi Zəfərimizin mahiyyətinin gələcək nəsillərə çatdırılmasında mühüm əhəmiyyət daşıyır”.

YAP Veteranlar Şurası sədrinin müavini Əli Həsənov Vətən müharibəsində əldə edilən şanlı Qələbənin əhəmiyyətindən bəhs edib. O diqqətə çatdırıb ki, 44 günlük Vətən müharibəsi 30 illik həsrətimizə son qoydu: “Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun əzmi sayəsində qazanılan şanlı Zəfər dövlətçilik tariximizin ən parlaq səhifəsi oldu. Şəhidlər Vətənimizin şanlı tarixini yazaraq gələcək nəsillərə örnək oldular”.

Qeyd olunub ki, Ümummilli Liderin uzaqgörən siyasəti və zəngin dövlətçilik irsi bu gün Azərbaycanın inkişafının əsas dayaqlarından biridir.

Kitab haqqında fikirlərini bölüşən Ə.Həsənov deyib ki, sözügedən nəşr Vətənin bütövlüyü naminə canlarını qurban verən şəhidlərimizin, eləcə də döyüşlərdə sağlamlığını itirsə də, ruh yüksəkliyini və mübarizə əzmini qoruyub saxlayan qazilərimizin şərəfli həyat yoluna həsr olunmuşdur: “Kitabda onların keçdiyi qəhrəmanlıq yolu, göstərdikləri misilsiz fədakarlıq və xalqımızın yaddaşında əbədi yaşayacaq igidlik nümunələri əksini tapır. Əsas məzmunu Vətən sevgisi, şəhidlərimizin müqəddəs xatirəsinə ehtiram, qazilərimizin sarsılmaz iradəsi, xalqımızın həmrəyliyi və milli dövlətçilik dəyərlərinə sədaqət təşkil edir”.

Təqdimat mərasimində Azərbaycan Jurnalistlər Birliyinin üzvü, kitabın redaktoru Əliqismət Bədəlov, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Politologiya və siyasi sosiologiya şöbəsinin müdiri, professor Rəna Mirzəzadə, filologiya üzrə fəlsəfə doktoru, yazıçı-publisist Şərəf Cəlili, Birinci Qarabağ müharibəsi şəhidləri Natiq və Azər Novruzovun anası Lətifə Novruzova, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Zaur Hüseynov da çıxış ediblər.

Çıxışlarda 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərin Azərbaycan xalqının iradəsinin, dövlətimizin qüdrətinin təcəssümü olduğu bildirilib. Qeyd olunub ki, hərb meydanında əldə edilən uğurlar diplomatik müstəvidə qazanılan nailiyyətlərlə və informasiya cəbhəsində nümayiş etdirilən üstünlüklərlə tamamlanıb. Şəhidlərin Vətən uğrunda göstərdikləri fədakarlığın gələcək nəsillər üçün örnək olduğu, onların xatirəsinin xalqımızın yaddaşında əbədi yaşayacağı vurğulanıb.

Diqqətə çatdırılıb ki, “Qəhrəmanlıq zirvəsi” kitabında şəhidlərin və qazilərin adları ehtiramla təqdim edilir, onların Vətən sevgisi, ailə dəyərləri, döyüş yolu və xalq qarşısındakı mənəvi xidmətləri oxuculara çatdırılır. Nəşrin əsas məqsədlərindən biri şəhidlərin xatirəsini yaşatmaq, qazilərin qəhrəmanlıq yolunu təbliğ etmək və milli yaddaşın qorunmasına töhfə verməkdir.

YAP Veteranlar Şurasının üzvü, “Modern İnkişaf və Ailə” İctimai Birliyinin sədri Zərifə Quliyeva kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib. O qeyd edib ki, kitab Vətən uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsinə və torpaqlarımızın müdafiəsi naminə sağlamlıqlarını fəda edən qazilərin qəhrəmanlıq yoluna həsr olunub. Bu qəhrəmanlıq salnaməsinin arxasında Azərbaycanın qazandığı tarixi Zəfər, milli birlik və güclü dövlətçilik iradəsi dayanır.

Zərifə Quliyeva vurğulayıb ki, 2020-ci il noyabrın 8-də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Şuşa şəhərinin azad olunduğunu elan etməsi Azərbaycan xalqının tarixinə əbədi həkk olunub: “Şuşanın azad edilməsi müharibənin gedişinə həlledici təsir göstərərək Azərbaycanın hərbi üstünlüyünü daha da möhkəmləndirib. Məhz bu tarixi hadisənin şərəfinə 8 Noyabr ölkəmizdə Zəfər Günü kimi qeyd olunur. 8 Noyabr yalnız milli qürur günümüz deyil, həm də gələcək nəsillər qarşısında böyük məsuliyyətimizin göstəricisidir. 44 günlük Vətən müharibəsi xalqımızın iradəsini, Azərbaycan Ordusunun gücünü, əsgərlərimizin qəhrəmanlığını və dövlətimizin qətiyyətini bütün dünyaya nümayiş etdirib. Vətənin azadlığı uğrunda canlarından keçən igid oğullarımızın xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq”.

O, Prezident İlham Əliyevin partiyanın VIII Qurultayında səsləndirdiyi fikirlərə diqqət çəkərək milli-mənəvi dəyərlərin qorunması, dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin ideoloji işin əsas istiqamətləri olduğunu bildirərək Heydər Əliyev irsinin və Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin, tarixi Zəfərimizin təbliğinin, informasiya təhlükəsizliyinin və milli həmrəyliyin qorunmasının vacibliyini vurğulayıb.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda bədii hissə təqdim olunub.




















Zəfər ayının 5-ci günü
5 noyabr 2020-ci il



• Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə və Xocavənd istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

• Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib.

• Müdafiə Nazirliyi Füzuli və Xocavənd rayonlarının işğaldan azad edilən kəndlərinin videogörüntülərini yayıb.

• Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusunun bölmələrinin həyata keçirdiyi əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi ziyan vurulub. Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dəqiq artileriya zərbələri ilə dağıdılıb.

• Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin döyüş meydanında atıb qaçdığı və qənimət olaraq bölmələrimizin ələ keçirdiyi hərbi texnikaların görüntülərini paylaşıb.

• Ermənistan ordusu Goranboyun kəndinə "Smerç" raketi atıb - AZƏRTAC-ın foto və videosu.

• Ermənistan silahlı qüvvələrinin 41-ci artilleriya alayının batareyası və hərbi kolonu pusquya salınaraq məhv edilib.

• Baş Prokurorluğun məlumatına əsasən, düşmənin təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 5-dək 92 mülki şəxs həlak olub, 404 nəfər xəsarət alıb, 2971 ev, 100 çoxmənzilli yaşayış binası və 502 mülki obyekt yararsız vəziyyətə düşüb.



Mənəvi məsuliyyət, tarixi ədalət

Azərbaycanın bir qrup QHT nümayəndəsi M.Pezeşkiana məktubla müraciət edərək ondan İranda yaşayan soydaşlarımızın ana dilində təhsil almalarına şərait yaradılmasına dəstək verməsini xahiş ediblər.

Azərbaycanın davamlı dövlət dəstəyi sayəsində güclənən vətəndaş cəmiyyəti təsisatları ölkəmizin hüdudlarından kənarda da xalqımızın maraqlarının qorunmasında yüksək fəallıq və həmrəylik nümayiş etdirirlər. Bunun təsdiqi olaraq bir qrup QHT nümayəndəsi noyabrın 2-də İranın Azərbaycandakı səfirliyinə gedərək Prezident Məsud Pezeşkiana oktyabrın 26-da ünvanladıqları açıq məktubu təqdim ediblər.

Bu barədə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyindən məlumat verilib. Bildirilib ki, səfirlik nümayəndələri sənədi qəbul ediblər.

QHT təmsilçiləri tezliklə Məsud Pezeşkiandan müraciətlərinə cavab alacaqlarına ümid etdiklərini vurğulayıblar. Qeyd edək ki, məktubda Pezeşkiandan İranda yaşayan soydaşlarımızın ana dilində təhsil almalarına şərait yaradılmasına dəstək verməsi xahiş olunur.

Niyə məhz Pezeşkian?

Qonşu İran özünəməxsus dövlət quruluşuna malik olan bir ölkədir və hakimiyyətin müxtəlif qolları var. Təbii ki, bu ölkədə indiyədək prezidentlər olub və bundan sonra da olacaq. Məsud Pezeşkian İranın 9-cu Prezidentidir. O, 2024-cü ildə keçirilən prezident seçkilərinin ikinci turunda rəqibi Səid Cəlili ilə mübarizə aparıb və qalib gəlib. Dövlət başçısı statusunda vəzifələrinin icrasına 28 iyul 2024-cü ildə başlayıb.

Sual oluna bilər: Azərbaycanın QHT nümayəndələri nə üçün İranın azərbaycanlılar yaşayan ostanlarında ana dilində təhsil müəssisələrinin yaradılması xahişi ilə müraciəti əvvəlki prezidentlərə və yaxud hakimiyyətin digər qollarına deyil, məhz M.Pezeşkiana ünvanlayıblar? Sualın cavabı olaraq bildirək ki. Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri Məsud Pezeşkianın milli kimliyə bağlı olmasını nəzərə almaqla müraciətlərini məhz ona ünvanlamağı məqsədəuyğun sanıblar. Məktubda QHT təmsilçiləri Pezeşkianın Azərbaycan dilinə, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə və zəngin ədəbi irsinə bəslədiyi məhəbbət və hörmətin təqdirəlayiq olduğuna xüsusi vurğu edirlər. Məsud Pezeşkian İranın müəyyən dairələrində xoş qarşılanmasa da, müxtəlif çıxışlarında ana dilində şeirlər səsləndirir, Azərbaycan atalar sözlərinə müraciət edir, ailə üzvləri ilə doğma ana dilində ünsiyyət qurur və bu dilə bağlılığını qürurla nümayiş etdirir. O, publik çıxışlarında etnik mənsubiyyətini və milli kimliyini heç vaxt gizlətməyib, əksinə hər zaman bunu qürurla diqqətə çatdı-



rıb. Məsud Pezeşkian BBC-yə verdiyi bir açıqlamasında Azərbaycanda doğulduğunu xüsusi olaraq vurğulayıb. Güney Azərbaycanda (Təbrizdə) milli kimliyin rəmzlərindən biri hesab olunan, azərbaycanlıların geniş dəstəklədiyi məşhur "Traktor" (Təbriz) futbol klubunun sadiq azarkeşi olması da onun milli kimliyinə necə böyük önəm verməsinin daha bir göstəricisidir.

M.Pezeşkianın İranın dövlət başçısı kimi ölkəmizə münasibətdə xoş məramdan çıxış etməsi də diqqətdən kənarda qala bilməz. O, Prezident seçildikdən sonra Azərbaycan Respublikası ilə əlaqələrin "dostluq və qardaşlıq" prinsiplərinə əsaslandığını tez-tez bəyan edir. Onun dövründə iki ölkə arasında əvvəlki illərdə yaşanan gərginlik və soyuqluq böyük ölçüdə aradan qalxıb. M.Pezeşkian 2025-ci ilin aprel ayında dövlət başçısı statusunda respublikamıza ilk rəsmi səfərini reallaşdırırb. Həmçinin 2025-ci ilin iyul ayında İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xankəndidə baş tutan Zirvə görüşünə qatılıb. M.Pezeşkian ölkəsində keçirilən mühüm tədbirlərin birində bildirib ki, Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlər arasında qarşılıqlı əlaqələrin dərinləşdirilməsində mühüm rol oynayan ölkədir.

M.Pezeşkian iki ölkə arasında sərhədlərin, yolların və regional marşrutların (məsələn, Ağbənd layihəsi) açılmasının tərəfdarı kimi çıxış edir və üçüncü tərəflərin Azərbaycan-İran əlaqələrinə zərər vurmasına icazə verilməməli olduğunu vurğulayır . O həmçinin regional böhranlar və çətin dövrlərdə Azərbaycanın İrana göstərdiyi dəstəyi, eləcə də humanitar yardımları hər zaman yüksək qiymətləndirdiyini şəxsən dilə gətirib və bununla bağlı minnətdarlığını ifadə edib.

Qonşu ölkədə azərbaycanlıların ana dilində təhsil almaq hüququ tanınmalıdır

Azərbaycan zamanında regioal güc mərkəzlərinin - imperiyaların məkrli planları əsasında iki yerə bölünüb. Bu gün Azərbaycan Respublikası müstəqil dövlət kimi inkişaf edir. Xalqımız öz taleyinin sahibidir. Ölkəmiz qısa müstəqillik tarixində böyük uğurlar qazanıb. Bu gün Azərbaycanın dünya miqyasında orta güc dövləti kimi qəbul edilməsi son dərəcədə qürurvericidir. Eyni zamanda, Azərbaycan xalqı elm, təhsil, mədəniyyət sahəsində böyük uğurlara imza atıb. Respublikamızda ana dilində çoxlu sayda təhsil müəssisəsi fəaliyyət göstərir.

Bəs İranda yaşayan milyonlarla soydaşımızın ana dilində təhsil almaq hüququ niyə tanınmır? QHT təmsilçilərinin Pezeşkiana ünvanladıqları məktubda azərbaycanlıların İranın ictimai-siyasi həyatında mühüm rol oynadıqları bildirlir. Qonşu ölkədə soydaşlarımız müxtəlif sahələrdə çalışaraq böyük uğurlara imza atırlar. M.Pezeşkianın tərcümüyi-halı da soydaşlarımızın nə qədər yüksək intellektual potensiala malik olduqlarını əyani şəkildə təsdiqləyir. Bu reallıqlar ortada ikən İranda azərbaycanlıların ana dilində təhsil almalarına şərait yaradılmamasının məntiqi başa düşülmür. O da təəccüblüdür ki, qonşu ölkədə yaşayan azsaylı ermənilərin ana dilində məktəbləri fəaliyyət göstərir, bu dildə nəşrlər çap olunur. On milyonlar-



la azərbaycanlı isə ana dilində təhsildən kənarda qalır...

Bu kimi reallıqlar nəzərə alınmaqla məktubda M.Pezeşkiana çağırış edilir. "... İnanırıq ki, ana dilinin insan həyatında daşıdığı müstəsna əhəmiyyəti qiymətləndirən bir dövlət başçısı kimi siz İranda yaşayan milyonlarla azərbaycanlının öz doğma dilində təhsil almaq arzusuna da xüsusi həssaslıqla yanaşacaqsınız. Hesab edirik ki, İranın ictimai-siyasi, iqtisadi, mədəni və digər sahələrdə həyatında həmişə mühüm rol oynayan azərbaycanlıların ana dilində təhsil imkanlarının təmin olunması istiqamətində tarixi addımlar atmağın vaxtı çatıb", - deyə QHT təmsilçiləri vurğulayıblar.

Məktubda Azərbaycanın QHT təmsilçiləri Məsud Pezeşkiana xitabla onu da vurğulayıblar ki, milyonlarla insanın öz ana dilini qorumaq, inkişaf etdirmək və gələcək nəsillərə ötürmək imkanlarının genişləndirilməsi həm mənəvi məsuliyyət, həm də tarixi ədalət məsələsidir. Məktubda oxuyuruq: "İnanırıq ki, məhz sizin prezidentliyiniz dövründə bu istiqamətdə tarixi addımlar milyonlarla azərbaycanlının yaddaşında silinməz iz qoyacaq, həmişə minnətdarlıqla yad ediləcəkdir. Biz - Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri də bu nəcib missiyanın həyata keçirilməsinə, ana dilində təhsilin inkişafına, elmi-pedaqoji və mədəni əməkdaşlığın genişləndirilməsinə öz imkanlarımız daxilində hər cür dəstək verməyə hazır olduğumuzu bildiririk".

Mübariz FEYİZLİ

Gələn il qeyri-neft gəlirlərinin büdcədəki payı 51,9 faizə yüksələcək

Son 20 ilin ən yüksək göstəricisi

Məlum olduğu kimi "2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirəyə çıxarılıb. Büdcə layihəsi növbəti il və ortamüddətli dövr üzrə makroiqtisadi proqnozları, büdcə, o cümlədən gəlir və xərc siyasətinin əsas istiqamətlərini, büdcə qaydasına əsaslanan makrofiskal çərçivəyə, qəbul edilmiş strateji sənədlərə və hökumət tərəfindən müəyyən edilmiş prioritetlərə uyğun olaraq tərtib edilib. Sənəd dövlət maliyyəsinin idarəolunması sahəsində bir sıra fiskal diaqnostika alətləri, həmçinin Açıq Büdcə Sorğusu metodologiyasına uyğun olaraq, icmal və dövlət büdcəsinin əsas göstəricilərinin ictimaiyyətə mütərəqqi praktikaya uyğun açıqlanması, bu sahədə şəffaflıq prinsiplərinin təmin olunması məqsədi ilə hazırlanıb.

23 milyard 774 milyon manat həcmində gəlirlər

Gələn ilin dövlət büdcəsində diqqəti cəlb edən ən mühüm məqamlardan biri dövlət büdcəsinin fiskal yığımlarında qeyri-neft-qaz sektorunun xüsusi payının artması ilə bağlıdır. Belə ki, ümumi həcmi 39,2 milyard manat proqnozlaşdırılan büdcə gəlirlərinin 60,6 faizi və ya 23 milyard 774 milyon manatı birbaşa qeyri-neft-qaz sektorunun payına düşür. Bu, son beş il ərzində dövlət büdcəsinin gəlirlərinin faktiki icra göstəricilərində qeyri-neft-qaz sektoru üzrə gəlirlərin xüsusi çəkisinin 8 fazidən çox artması və 43,3 faizdən 51,9 faizə yüksəlməsi deməkdir. 2026-cı il dövlət büdcəsinin proqnoz göstəricisi ilə müqayisədə neft-qaz sektorunun gəlirləri (Dövlət Neft Fondundan transfert daxil olmaqla) 955 milyon manat və ya 5,8 faiz az, qeyri-neft-qaz sektorunun gəlirləri isə 1,6 milyard manat və ya 7,2 faiz çox olacaq. 2025-ci ilin icrası ilə müqayisədə neft-qaz sektorunun gəlirləri 3 milyard 348,4 milyon manat və ya 17,8 faiz azalacaq, qeyri-neft-qaz sektorunun gəlirləri isə 3 milyard 417,8 milyon manat və ya 16,8 faiz çoxaldılacaq.

Beləliklə, qeyri-neft sektoru üzrə gəlirlərin xüsusi payı büdcədə son 20 ilin ən yüksək səviyyəsinə çatacaq.

Büdcə gəlirlərinin əsas istiqaməti ölkənin iqtisadi inkişafını sürətləndirmək, rəqabət qabiliyyətini gücləndirmək, investisiya mühitini daha cəlbedici etmək məqsədi daşıyır. Bu tədbirlər çərçivəsində vergi borclarının idarə olunması sahəsində daha çevik yanaşmaların tətbiqi və könüllü ödəniş intizamının gücləndirilməsi, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi və vergi və gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi kimi addımlar planlaşdırılır.





Qeyri-neft gəlirləri əlavə dəyərin artımının təmin edilməsində başlıca fiskal nöqtə kimi müəyyən edildiyindən, ortamüddətli dövrdə büdcə yığımları üçün də potensial mənbə rolunu oynayacaq. Belə ki, makroiqtisadi proqnozlara əsasən, 2028-ci ildə büdcə gəlirləri 39,5 milyard manat, 2029-cu ildə 39,9 milyard manat, 2030-cu ildə isə 40,6 milyard manat təşkil edəcək. Davamlı olaraq hər il qeyri-neft-qaz gəlirlərinin dövlət büdcəsinin gəlirlərindəki payı artacaq və 2027-ci ilin göstəricisi ilə müqayisədə 2030-cu ildə büdcəki xüsusi çəkisi 69,8 faizə çatacaq. Bu, mütləq ifadədə 28,3 milyard manat deməkdir. Yəni, 2027-ci ilin qeyri-neft gəlirlərindən (23 milyard 774 milyon manat) 4,6 milyard manat çox vəsaitin əldə ediləcəyi gözlənilir.

Qeyri-neft sektoru üzrə ÜDM-də proqnozlaşdırılan artım, həmçinin "kölgə iqtisadiyyatı"nın səviyyəsinin azaldılması, fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların optimallaşdırılması, gəlirlərin leqallaşdırılması, elektron idarəetmənin iqtisadiyyatın əksər sahələrinə nüfuzunun artması nəticəsində büdcə gəlirlərinin tərkibində qeyri-neft-qaz sektorunun payı artacaq.



Beləliklə, təkcə 2027-ci ildə deyil, sonrakı dövrlərdə də inkişafın dayanıqlı mənbəsi qeyri-neft yığımları olacaq. Məhz həmin fiskal sütuna əsaslanaraq hökumət ortamüddətli dövrdə ölkənin gəlir siyasətini optillaşdırmaq, stimulyaradıcı alətlərə fokuslamağı hədəfləyir. Bu ssenari üzrə vergi yükünün optimallaşdırılması, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi, vergi və gömrük inzibatçılığının təkmilləşdirilməsi, ekoloji təmiz nəqliyyat vasitələrinin dövriyyəsinin artırılması kimi addımlar planlaşdırılır.

E.CƏFƏRLİ

Ortamüddətli dövrdə qeyri-neft yığımlarının dinamikası

Hökumətin bir neçə gün əvvəl təqdim etdiyi 2027-2030-cu illəri əhatə edən Ortamüddətli Xərclər Çərçivəsi (OMXÇ) sənədində də qarşıdakı 4 ildə inkişafın əsas əlavə dəyər yaradan sütunları kimi qeyri-neft mənbələri nəzərdə tutulub. Ortamüddətli dövrün ssenarilərinə əsasən, 2027-ci ildə ÜDM-də qeyri-neft sektorunun payı nominal ifadədə 109,1 milyard manat təşkil edəcək. Bu, faiz nisbəti ilə iqtisadi dəyərin 77,4 faizi deməkdir. 2028-ci ildə qeyri-neft sektorunun ÜDM-dəki xüsusi çəkisinin 118,3 milyard manata və ya 80,2 faizə, 2029-cu ildə 128,1 milyard manata və 80,8 faizə çatacağı fərz olunur. 2030-cu ildə isə proqnozlaşdırılan cəmi 169,1 milyard manat həcmində ÜDM-in 138,6 milyard manatın qeyri-neft yığımlarına söykənəcəyi gözlənilir. Bu, faiz göstəricisi ilə ÜDM-in 82 faizi deməkdir.

Ortamüddətli dövrdə ÜDM-in real artım tempinin əsas hərəkətverici təkanı da qeyri-neft sütunları olacaq. Belə ki, ölkə üzrə orta illik artımın 3,3 faiz təşkil edəcəyi gözlənilir ki, inkişaf dinamikasında qeyri-neft-qaz sektoru üzrə temp 4,4- 4,5 faiz olacaq.

“3+3” yenidən toplanacaqmı?

Moskva ümid etsə də, reallıqlar fərqlidir

Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Qələbə Cənubi Qafqazda geosiyasi reallıqları dəyişməklə yanaşı, müharibədən sonrakı mərhələdə sülhə, təhlükəsizliyə və qarşılıqlı əməkdaşlığa əsaslanan yeni münasibətlər sisteminin formalaşmasına da zəmin yaradıb. Bu gün regionda müşahidə olunan proseslər göstərir ki, hərbi-siyasi üstünlüyünü təmin etmiş Azərbaycan həmin mövqedən yalnız milli maraqlarının reallaşdırılması üçün deyil, bütövlükdə bölgənin inkişafı və tərəqqisi naminə istifadə edir. Bakının uzun illər ərzində yaratdığı nəqliyyat, logistika və enerji infrastrukturu, əlverişli coğrafi mövqeyi, beynəlxalq tərəfdaşları ilə qurduğu etibarlı münasibətlər Cənubi Qafqazı daha geniş iqtisadi və siyasi əməkdaşlıq məkanına çevirmək üçün mühüm imkanlar açır. Təsadüfi deyil ki, regionun gələcəyini müəyyənləşdirən proseslərdə Azərbaycanın iştirakı və təşəbbüsləri xüsusi əhəmiyyət daşıyır. Artıq ayrı-ayrı dövlətlər də anlayırlar ki, bölgədə dayanıqlı təhlükəsizlik və iqtisadi inkişaf qarşılıqlı maraqların uzlaşdırılmasından, süni maneələrin aradan qaldırılmasından keçir.

Qeyd edək ki, post-müharibə dövründə aktuallaşan hətta bir neçə dəfə müzakirələr aparan platformalardan biri də “3+3” regional əməkdaşlıq formatı idi. Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiya, Türkiyə və İranın bir araya gəlməsi perspektivi üzərindən yaranan bu təşəbbüs regionla bağlı məsələlərin müzakirəsi və həlli baxımından mühüm platforma kimi nəzərdən keçirilirdi. Amma o qədər də aktiv olmayan bu platforma subyektiv və obyektiv səbəblərdən aktuallıq qazanmadı. Xüsusilə, regionda başlanan qarşıdurmalar bu platformanın xüsusi vüsət qazanmasına mane oldu.

Rusiya ümid edir...

Qeyd edək ki, Rusiya bu regional əməkdaşlıq formatının yenidən fəaliyyətinin dirçəldilməsi istiqamətində təkliflər irəli sürüb. Belə ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Avrasiya təhlükəsizliyi üzrə IV Minsk Beynəlxalq Konfransının yüksəksəviyyəli plenar iclasında çıxışı zamanı bildirib ki, Rusiya regional məsləhətləşmə platforması olan “3+3” formatında növbəti görüşün yaxın vaxtlarda keçirilməsini gözləyir. “Bu platformanın iştirakçıları ümumi maraqları birləşdirən gündəliyin reallaşdırılması barədə razılığa gəliblər. Ümid edirik ki, yaxın vaxtlarda bu formatda növbəti görüş keçiriləcək”, - deyə Rusiyanın xarici siyasət idarəsinin rəhbəri bildirib.

5 ilə 3 görüş...

“3+3” formatında ilk iclas Gürcüstanın iştirakı olmadan xarici işlər nazirlərinin müavinləri səviyyəsində 2021-ci il 10 dekabr tarixində Moskvada keçirilmişdi. Sonrakı tədbir isə 2023-cü ilin oktyabrında XİN başçılarının iştirakı ilə Tehranda reallaşıb. Moskva toplantısında iqtisadiyyat, energetika, ticarət, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, təbii ehtiyatlar, təhsil, mədəniyyət, turizm kimi sahələr üzrə əməkdaşlığın perspektivi nəzərdən keçirilmişdisə, Tehranda baş tutan beştərəfli görüşdə regional kommunikasiya məsələsi də müzakirə predmetinə çevrilmişdi. Bu formatda növbəti, hələlik isə son görüş 2024-cü ilin oktyabrında Türkiyədə baş tutdu. Görüşün sonunda kommünike imzalandı. Gürcüstanın platformaya qoşulmaq imkanının açıq saxlanıldığı xüsusi vurğulandı. Ötən ilin yayında Ermənistan “3+3” formatında nazirlərin növbəti görüşünü keçirməyə hazır olduğunu bəyan etsə də, 4-cü rəsmi toplantı baş tutmadı.

3+3-ün perspektivi...

Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin təmin olunması, regional iqtisadi əlaqələrin genişləndirilməsi baxımından 3+3 formatı vaxtilə mühüm perspektivlər vəd edirdi. Bu platformanın əsas ideyası region dövlətlərinin problemlərini kənar müdaxilələr olmadan, birbaşa dialoq və qarşılıqlı maraqlar əsasında müzakirə etməsi idi. Lakin ötən müddət ərzində keçirilən toplantıların nəticələri göstərir ki, ilkin niyyətlərlə real siyasi imkanlar arasında müəyyən məsafə mövcuddur. 2021-ci ildə Moskvada başlayan, 2023-cü ildə Tehranda və 2024-cü ildə İstanbulda davam edən görüşlər hələlik davamlı institusional əməkdaşlıq mexanizminə çevrilə bilməyib. Tərəflərin fərqli geosiyasi maraqları, regiondakı mürəkkəb münasibətlər və bəzi iştirakçıların mövqelərindəki ziddiyyətlər formatın fəaliyyət imkanlarını məhdudlaşdırır. Gürcüstanın prosesdə iştirak etməməsi də platformanın regional təmsilçilik baxımından əhatəliliyini zəiflədir. Digər tərəfdən, Azərbaycanın müharibədən sonrakı mərhələdə irəli sürdüyü sülh və əməkdaşlıq gündəliyi artıq yeni siyasi reallıqlar yaradıb. Bir çox siyasi analitiklərin fikrincə, bu baxımdan 3+3 platformasının indiki vəziyyətdə ciddi siyasi dinamika nümayiş etdirməməsi onun yaxın perspektivdə aparıcı regional mexanizmə çevriləcəyi ilə bağlı gözləntiləri zəiflədir. Bununla belə, formatın imkanları tamamilə istisna da edilmir - siyasi bəyanatların real addımlarla əvəzlənməsi halında bu formatın müzakirələrinin mühüm nəticələr vəd edəcəyi də gözlənilə bilər.



Burada əsas məqamlardan biri də Ermənistan ilə Rusiya arasındakı münasibətlərin fərqli istiqamətdə inkişafıdır. İrəvanın “üzünü” başqa siyasi istiqamətə yönəltməsi Moskva ilə münasibətlərinə təsirsiz ötüşməyib. Hətta Ermənistan rəsmiləri KTMT müstəvisində belə keçirilən görüşlərə qatılmırlar. Belə olan halda, Moskvanın İrəvanla yenidən isti münasibətə qədəm qoyacağı ən azından indiki halda inandırıcı görünmür.

Bakının formalaşdırdığı reallıqlar...

Vurğulandığı kimi, bu formatın missiyası iqtisadi əməkdaşlıq platforması təşkil etmək, bütövlükdə bölgənin maraqlarını özündə ehtiva edən addımların atılmasını təşviq etməkdir. Regionda iqtisadi münasibətlərin inkişafı və əməkdaşlığın möhkəmləndirilməsi üçün ən vacib şərtlərdən biri isə məhz Ermənistanın öz qonşuları ilə münasibətlərini sülh və ədalət çərçivəsində qurmasına əsaslanır. Rəsmi İrəvan anlamalıdır ki, indiki halda iqtisadi inkişaf, regional əməkdaşlıq, qarşılıqlı anlaşma onların siyasi müstəqilliyini də təmin etmək iqtidarındadır.

Azərbaycan isə bütün hallarda istər təşəbbüskarı olduğu, istərsə də iştirakçı kimi təmsil olunduğu qlobal layihələrin ilk növbədə qlobal səmərəsini düşünür - ölkəmiz üçün bölgənin ümumi inkişaf tempinin yüksəlməsi əsas hədəfdir. Məhz ölkəmizin səyi nəticəsində Cənubi Qafqaz yeni iqtisadi-siyasi nizamın ən mühüm elementlərindən biri qismində çıxış edir. Azərbaycanın siyasi qətiyyəti sayəsində regional sabitlikdən tutmuş enerji-logistika inteqrasiyasına qədər geniş sahələr birmənalı əməkdaşlıq müstəvisinin konturlarını təşkil edir. Azərbaycan bu prosesdə həm sülhün təminatçısı, həm də inteqrasiyanın əsas həlqəsi rolunu oynayır. Rəsmi Bakı regional dövrdə təcridçilik deyil, əməkdaşlıq xəttini seçərək bütün dövlətlər üçün ortaq maraq zonası formalaşdırmağa nail olub - Ermənistana taxıl ixracına icazənin verilməsi, neft məhsullarının satılması buna bariz sübutdur. Beləliklə, Azərabycanın səyi ilə əməkdaşlıq mexanizmləri iqtisadi modelə çevrilərək yeni regional arxitekturanın əsas elementlərindən biri kimi çıxış edir. Həm Şərqin, həm də Qərbin geosiyasi maraq dairəsində olan coğrafiyamızı aktual edən də məhz Azərbaycanın iradəsi ilə qətiləşən sabitlik faktorudur.

SADİQ

ABŞ-da aralıq seçkiləri qüvvələr balansını necə dəyişdi?


Seçkilərin nəticələrini qəbul edən Donald Tramp demokratlarla əməkdaşlığa hazır olduğunu bəyan edib

Noyabrın 3-də ABŞ-da aralıq seçkiləri keçirilib. Seçkilər Prezident Donald Trampın ikinci prezidentlik müddətinin qalan iki ilində Konqresdə qüvvələr balansının müəyyənləşməsi baxımından mühüm əhəmiyyət daşıyır. Amerikalılar Nümayəndələr Palatasının bütün 435, Senatın isə 35 yeri uğrunda keçirilən seçkilərdə səs veriblər. Həmçinin, 36 ştatda qubernator seçkiləri keçirilib.

Demokratlar Senat və Nümayəndələr Palatasında üstünlük qazanıb

Seçki sisteminə əsasən, vətəndaşlar seçki günündən əvvəl də səs verə bilirlər və bu imkandan artıq 59 milyondan çox amerikalı istifadə edib. Erkən səsvermədə demokrat seçicilərin daha yüksək fəallığı müşahidə olunsa da, respublikaçılar məhz seçki günü daha fəal iştirak ediblər.

ABŞ Prezidenti Donald Tramp və administrasiyanın bir sıra üzvləri Konqresə aralıq seçkilərin nəticələrini Ağ Evin Şərq otağından izləyiblər. İlkin nəticələrə əsasən, Demokratlar Partiyasının Senatda artıq 100 yerdən 53-ü üzrə qalib gəldiyi təsdiqlənib. Respublikaçılar isə 42 yer əldə ediblər.



Demokratlar Partiyası Senatdan sonra Konqresin Nümayəndələr Palatasında da çoxluğu təmin edib. İlkin nəticələrə əsasən, demokratlar 435 yerlik Nümayəndələr Palatasında çoxluq üçün tələb olunan 226 mandat həddinə çatıblar. Respublikaçılar isə 129 yer əldə edib. Beləliklə, Demokratlar Partiyası Konqresin hər iki palatasında çoxluğu əldə edərək qanunverici hakimiyyət üzərində nəzarəti respublikaçılardan alıb.

Qeyd edək ki, ABŞ Konqresi 435 üzvlü Nümayəndələr Palatasından və 100 üzvlü Senatdan ibarətdir. Nümayəndələr Palatasında çoxluq üçün ən azı 218, Senatda isə 51 yer tələb olunur. “Associated Press” agentliyinin son məlumatlarına əsasən, demokratlar Texas, Şimali Karolina, Cənubi Karolina, Kanzas, Ayova və Ohayo ştatlarında respublikaçıların nəzarətində olan Senat yerlərini də qazanıblar. Onilliklər ərzində ilk dəfə olaraq Texas , Kanzas və Cənubi Karolina ştatlarında demokratlar qalib gəlib.

ABŞ tarixində ilk müsəlman senator

Miçiqan ştatından demokratların namizədi olan Əbdül Əl-Sayed Respublikaçı Mayk Rocersi məğlub edərək bu əyalətdən Senata seçilən ilk müsəlman olub. Onun qələbəsi müsəlman inancının əsas məsələyə çevrildiyi mübahisəli bir kampaniyadan sonra qazanılıb. Prezident Donald Tramp və digər Respublikaçılar Əl-Sayedi dini mənsubiyyəti ilə bağlı dəfələrlə tənqid ediblər.

ABŞ Prezidenti Donald Tramp isə Konqresə aralıq seçkilərin nəticələrini qəbul etdiyini və demokratlarla əməkdaşlığa hazır olduğunu bildirib. Amerika lideri bu barədə “The New York Times” qəzetinə müsahibəsində deyib. “Bu nəticələri tamamilə qəbul etməyə hazıram. Demokratlarla əməkdaşlıq edəcəyik və onlarla işləməyi səbirsizliklə gözləyəcəyik. Yəqin ki, ortaq bir məxrəcə gələrik”, - deyə, Tramp bildirib. O, həm də Respublikaçılar Partiyasının məğlubiyyətini öz adının seçki bülletenində yer almaması ilə izah edib: “Mənim adım seçki bülletenində yox idi. Əgər orada olsaydım, böyük fərqlə qalib gələrdik”.

Tramp: Demokratlar arasında çoxlu dostlarım var

Daha əvvəl ABŞ Prezidenti Konqresin hər iki palatasının demokratların nəzarətinə keçəcəyi təqdirdə onların qanun layihələrini bloklamaq üçün veto hüququndan istifadə etmək niyyətində olduğunu bildirib. Tramp bunu “Fox News” telekanalına müsahibəsində deyib. “Bu, prezidentin ən güclü səlahiyyətlərindən biridir. Onlar absurd qanun layihələri göndərəcəklər, mən isə onlara veto qoyacağam. Bir neçə aydan sonra onlar soruşacaqlar: bu qərarların qəbul edilməsinə necə nail olaq? Və biz birlikdə işləyəcəyik”, - deyən Prezident, həmçinin artıq Demokratlar Partiyasının nümayəndələri, o cümlədən iki senator və Nümayəndələr Palatasının üç üzvü ilə danışıqlar apardığını bildirib. Onun sözlərinə görə, daha üç demokrat onunla əlaqə saxlamaq imkanını gözləyir.


Tramp demokratlar arasında çoxlu dostunun olduğunu və onların dialoqda maraqlı olduqlarını söyləyib. O, qeyd edib ki, Respublikaçılar Partiyasının aralıq seçkilərdəki uğursuzluğunun səbəbi İranla müharibə deyil, müharibə nəticəsində benzinin qiymətinin artması olub: “Məsələnin müharibədə yox, benzinin qiymətlərində olduğunu düşünürəm. İnsanlar İranla bağlı atdığım addımlarla razılaşırlar, lakin ehtimal ki, onlar benzin üçün daha çox pul ödəmək zərurəti şəklindəki qısamüddətli nəticələrə hazır deyildilər. Və mən bunu başa düşürəm”.

N.BAYRAMLI

Avrozonada inflyasiyanın illik səviyyəsi 4 faizə çatıb

“Eurostat” statistika agentliyinin noyabrın 4-də açıqladığı təcili hesablamaya görə, avrozonada illik istehlak inflyasiyasının 3,8 faizdən 4 faizə çataca-ğı gözlənilir. Artım enerji xərclərinin artması ilə bağlıdır və əsas komponentlər arasında ən yüksək illik inflyasiya səviyyəsi sentyabr ayında 18,9 faizdən 20,8 faizə yüksəlib. Xidmət sektorunda inflyasiyanın illik səviyyəsi isə oktyabrda əvvəlki ayla müqayisədə 3,2 faizdən 3,3 faizə qalxıb.

AZƏRTAC agentliyin saytına istinadla xəbər verir ki, qida, spirtli içki və tütün qiymətləri oktyabr ayında illik olaraq 1,6 faiz artıb, sentyabr ayında isə bu göstərici 1,3 faiz olub. Emal olunmamış qida məhsulları üzrə inflyasiya isə 4,6 faiz artım



göstərir. Qeyri-enerji sənaye mallarının inflyasiyası sentyabr ayında 1,1 faizdən illik olaraq 1,2 faizə yüksəlib. Dəyişkən enerji, qida, spirtli içki və tütünü ehtiva etməyən əsas inflyasiya oktyabr ayında sentyabr göstəricilərini üstələyərək 2,5 faiz səviyyəsində sabit qalıb. Aylıq olaraq, oktyabr ayında avrozonada İstehlak Qiymətlərinin Harmonizasiya İndeksi 0,4 faiz artıb.

Aİ-yə üzv dövlətlər arasında ən yüksək illik inflyasiya səviyyəsi Litvada (6,1 faiz), Bolqarıstanda (6 faiz) olub. Yunanıstan və İtaliyada 5,6 faizlik inflyasiya müşahidə olunub.

Ən aşağı illik inflyasiya səviyyəsi Maltada (2,3 faiz), Almaniyada (2,8 faiz) və Slovakiyada (2,9 faiz) qeydə alınıb.

Əbu-Dabidə sülh əldə olunacaqmı?

ABŞ, Ukrayna və Rusiya arasında növbəti üçtərəfli görüşün vaxtı və yeri müəyyənləşib. İşçi qrup formaatında aparılacaq danışıqlar 10-11 noyabr tarixlərində Əbu-Dabidə (BƏƏ) keçiriləcək.

Bu barədə ABŞ Prezidenti Donald Trampın xüsusi elçisi Stiv Uitkoff "X" sosial şəbəkəsində məlumat yayıb. "Birləşmiş Ştatlar Prezident Trampın müharibəni başa çatdırmaq səylərini irəli apararaq, 10-11 noyabr tarixlərində Əbu-Dabidə Ukrayna və Rusiya arasında işçi qrupları səviyyəsində danışıqlarda vasitəçi kimi çıxış edəcək", - deyə Uitkoff yazıb.

Danışıqlar masasında hansı məsələlər müzakirə olunacaq?

Donald Trampın təşəbbüsü əsasında Abu-Dabidə Rusiya ilə Ukrayna arasında danışıqlar masasının qurulması ümid işığı kimi görünür. Burada dünyanın bir nömrəli supergüc dövlətinin vasitəçilik missiyasını öz üzərinə götürməsi danışıqlara inamı artıran cəhətdir. Qeyd edək ki, son vaxtlarda Vaşinqton Rusiya-Ukrayna müharibəsi ilə bağlı fəallığını artırıb. Əgər Bayden administrasiyası dönəmində Ağ Evdən gələn siqnallar müharibənin şiddətlənməsinə səbəb olurdusa, son bir ildə Vaşinqtonun fərqli yanaşmalarına şahidlik edirik. Xüsusilə də D.Trampın Kiyevdən Rusiyanın enerji obyektlərini hədəf almamasını istəməsi, Rusiyadan ABŞ-a enerji məhsullarının ixracına qoyulan sanksiyaları müəyyən qədər yumşaltması yeni bir vəziyyət yaradıb. Lakin əlbəttə ki, bütün bunlar hələlik müharibənin sonuclanması anlamına gəlmir.

Bəs Əbu-Dabidə hansı məsələlər müzakirə olunacaq? Uitkoffun sözlərinə görə, görüşdə əsas diqqət müharibədən sonrakı təhlükəsizlik, deeskalasiya, humanitar təşəbbüslər və sülh yolu ilə nizamlanma istiqamətində gələcək addımlara dair razılaşmalara ayrılacaq.

ABŞ Prezidentinin Rusiya-Ukrayna müharibəsinin sonuclanmasını hədəfləyən təşəbbüslə çıxış etməsi təqdirəlayiqdir. Müharibə artıq beş ildir ki, uzanır və onun fəsadlarından bütün dünya təsirlənir. Rusiya və Ukrayna müharibədən əvvəl dünya üçün təchizatçı ölkələr olublar. Müharibə səbəbindən Avropaya Rusiyanın ucuz qazının, neft və neft məhsullarının ixracının kritik dərəcədə məhdudlaşması qoca qitəninin enerji balansına ciddi təsir göstərib. İndi Avropa İttifaqının (Aİ) ayrı-ayrı ölkələri enerji təhlükəsizliyi problemi ilə üz-üzədirlər. Təchizat tam təmin olunmur, qiymətlər artır, inflyasiya yüksəlir. Ukraynadan isə xüsusilə də taxıl, duru yağ və digər kənd təsərrüfatı məhsullarının ixracının azalması Afrikada və başqa regionlarda ərzaq qıtlığına səbəb olur. Eyni zamanda, Ukraynadan milyonlarla insanın məcburi köç etməsi Avropa ölkələri üçün əlavə təzyiqlər yaradır.



Bir sözlə, artıq müharibədən həm tərəflər, həm də bütün dünya yorulub. Belə bir vəziyyətdə Tərəflərin maksimalist mövqelərindən geri çəkilməmələri Əbu-Dabi görşündə sülh və yaxud sülhə yaxın bir razılaşmanın əldə olunacağına inamı azaldan məqamdır. Rəsmii Moskva ssenarisindən geri çəkilməyib - indiyədək nəzarətinə keçirə bilmədiyi ərazilərin Rusiyanın yurisdiksiyasına qatılmasını, NATO-nun Şərqə doğru genişlənməsinin dayandırılmasını, hətta Şimali Atlantika blokunun sərhədlərinin keçmiş SSRİ dövründəki vəziyyətə qaytarılmasını istəyir. Ukraynanın NATO-ya qoşulmaması da Kremlin fundamental tələbləri sırasında yer alır.

Kiyevin şərtləri də dəyişməz qalır. V.Zelenski israrla bildirir ki, Ukrayna ərazi itkiləri hesabına əldə olunacaq sülh istəmir. Ukrayna Prezidenti həmçinin D.Trampın "enerji atəşkəsi" çağırışına cavab olaraq bildirib ki, Kiyev buna hazırdır, ancaq bir şərtlə ki, Moskva da onun ölkəsində enerji infrastrukturuna zərbələr endirməyi dayandırmalıdır.

Əbu-Dabi görüşü ərəfəsində həmçinin tərəflərin qarşılıqlı zərbələrin intensivliyini artırdıqları müşahidə olunur. Qısa fasilədən sonra Ukraynaya məxsus pilotsuz uçuş aparatlarının (PUA) Rusiyadakı neft emalı müəssisələrinə hücumları yenidən başlayıb. Son olaraq üç neft emalı zavodu (NEZ) və bir qaz-kimya kompleksi hücuma məruz qalıb. Hücum kompleks xarakter daşıyıb. Hazır məhsul anbarında yanğın baş verdiyi təsdiqlənib. Bundan əlavə, müəssisənin dörd istehsalat sexinə ziyan dəyib. Qeyd edək ki, "Kamenski" kombinatında "Uraqan", "Smerç" və "Tornado-S" reaktiv yaylım atəşi sistemlərinin döyüş sursatları, eləcə də bir sıra raket sistemləri və aviasiya zərbə vasitələri üçün bərk raket yanacağı istehsal olunur.

Bundan başqa, Donetsk vilayətinin Xartsızsk və Dokucayevsk rayonlarında, Zaporojye vilayətinin Novovasilovka, Luqansk vilayətinin isə Novoaydar yaşayış məntəqələri yaxınlığında Rusiya ordusuna məxsus dörd maddi-texniki təchizat anbarı da vurulub.

Qarşılıqlı zərbələrin intensivləşməsi masada kimin işinə yarayacaq?

Öz növbəsində Rusiya da zərbələrin sayını artırıb. Bu günlərdə Ukraynanın Zaporojye vilayətinin Kamışevaxa qəsəbəsinə endirilən aviazərbələr nəticəsində ölənlərin sayı 26 nəfərə çatıb. Ukrayna Prezidentinin sözlərinə görə, ilk aviazərbədən sonra Rusiya qoşunları insanların olduğu sığınacağa daha doqquz aviabomba atıb. Zərbələr nəticəsində idman zalı və təsərrüfat tikilisi dağılıb, məktəb binasına ziyan dəyib, yanğınsöndürmə-xilasetmə avtomobili məhv edilib.

Yeri gəlmişkən, Latviya Ukraynaya ən azı 26 nəfərin ölümü ilə nəticələnən son Rusiya zərbələri ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının təcili iclasını çağırıb. Bu barədə Latviyanın xarici işlər naziri Bayba Braje "X" sosial şəbəkəsindəki hesabında paylaşım edib. "Latviya Ukraynanın mülki əhalisinə, o cümlədən azı 26 dinc sakinin həlak olduğu Kamışevaxadakı humanitar yardım paylanma məntəqəsinə Rusiya hücumları ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının təcili iclasını çağırıb", - deyə B.Braje bildirib.

Təbii ki, tərəflər qarşılıqlı zərbələrin intensivliyini artırmaqla danışıqlar masasında müəyyən üstünlük qazanmaq istəyirlər. Lakin bunun indiki vəziyyətdə uğurlu bir gediş olduğunu düşünmək sadəlövhlük olardı.

Avropa İttifaqı kənarda qalmaq istəmir - Moskvadan gələn kəskin etiraz

Əbu-Dabi görüşünün Avropa İttifaqı təmsilçilərinin iştirakı olmadan keçirilməsinin nəzərdə tutulması diqqətdən kənarda qala bilməz. Xatırladaq ki, D.Tramp Ağ Evdə fəaliyyətə başlayarkən Rusiya-Ukrayna müharibəsinin onun müharibəsi olmadığını bildirmişdi. Sonrakı mərhələdə isə Vaşinqton Ukraynaya birbaşa silah tədarükünü dayandırdı və burada yeni mexanizmin tətbiqinə başlanıldı. Belə ki, yeni qaydalara əsasən ABŞ silahları Aİ-yə satır, sonuncu isə bu silahları Ukraynaya ötürür.

Ağ Evin indiki administrasiyasından fərqli olaraq, Aİ Rusiya-Ukrayna müharibəsini öz müharibəsi sayır. Brüssel o qənaətdədir ki, Ukraynada həm də böyük Avropanın gələcək təhlükəsizliyi məsələsi həll olunur. Ukraynada uduzmaq Avropada uduzmaq deməkdir. Buna görə də Aİ üzləşdiyi çətinliklərə baxmayaraq, Rusiyanın ixracına tətbiq etdiyi sanksiyaları daha da sərtləşdirmək mesajları verir. Həmçinin Brüssel Ukraynaya silah tədarükünün və digər dəstək tədbirlərinin daha da gücləndiriləcəyini bildirir.

Aİ həmçinin müharibənin sonuclanması ilə bağlı qurulan masalarda öz təmsilçilərinin də yer almasında israrlıdır. Zelenski də aparılan danışıqlarda Aİ-nin iştirakını zəruri sayır. Lakin Brüsselin və Kiyevin bu istəyi Moskvada etirazla qarşılanır. Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov rəsmən bəyan edib ki, ABŞ və Ukrayna ilə keçiriləcək növbəti üçtərəfli danışıqlarda Avropa ölkələri iştirak etməyəcək.

Bütün bu ziddiyyətli məqamlar fonunda "Əbu-Dabidə sülh əldə olunacaqmı" sualı ritorik səslənir. Lakin Əbu-Dabi görüşü sülhə gedən yolda daha bir addım sayıla bilər.

Mübariz FEYİZLİ

2026-cı ilin seçki xəritəsi

Dünya dəyişiklik istəyir, yoxsa köhnə siyasi mübarizə yeni adlarla davam edir?

Bu ilin seçkiləri bir-birindən uzaq ölkələrdə keçirilsə də, onların hamısında oxşar bir mənzərə görünür: insanlar hakimiyyətdən daha çox cavab, daha çox təhlükəsizlik, daha yaxşı yaşayış və gələcəyə inam tələb edirlər. Braziliyada Lula da Silva yenidən prezident seçildi, Macarıstanda Viktor Orbanın 16 illik hakimiyyəti başa çatdı, Serbiyada tələbələrin yaratdığı siyasi hərəkat parlament seçkilərində böyük qələbə qazandı. İsraildə isə seçki hökumət qurmaq üçün yeni və çətin danışıqlar dövrü açdı. Almaniyada regional seçkilər sağçı AfD-nin gücləndiyini göstərdi. İsveçdə parlament seçkisi siyasi qüvvələr arasındakı tarazlığı dəyişdi. Bolqarıstanda isə prezident seçkisinin birinci turundan sonra seçicilərin böyük hissəsinin səsverməyə qatılmaması ölkədəki siyasi yorğunluğu bir daha üzə çıxardı.

Bu hadisələri ayrı-ayrı ölkələrin daxili işi kimi qəbul etmək olar, ancaq məsələ bununla bitmir. Ümumən seçkilər Avropa İttifaqının gələcəyinə, Ukrayna müharibəsinə baxışa, ABŞ-la münasibətlərə, Yaxın Şərqdəki vəziyyətə və qlobal siyasi qüvvələr balansına təsir göstərə bilər.

Braziliya, Macarıstan və Serbiya: seçici köhnə siyasi elitalara nə mesaj verir?

Braziliyada 25 oktyabr prezident seçkisinin ikinci turunda 80 yaşlı Luiz İnasio Lula da Silva yenidən dövlət başçısı seçildi. O, 64 milyon 256 min 232 səs, yəni etibarlı səslərin 51,79 faizini topladı. Rəqibi, sabiq prezident Jair Bolsonaronun oğlu Flavio Bolsonaro isə 48,21 faiz səs qazandı. Fərq cəmi 4,4 milyon səs oldu. İlk turda Flavio Bolsonaro öndə olsa da, ikinci turda Lula üstünlüyü ələ aldı. Bu nəticə Braziliya cəmiyyətində iki böyük siyasi düşərgənin hələ də üz-üzə dayandığını göstərir. Bir tərəfdə sosial proqramları, yoxsulluqla mübarizəni və dövlətin iqtisadiyyatda fəal rolunu müdafiə edən Lula, digər tərəfdə atasının siyasi xəttini davam etdirmək istəyən Flavio Bolsonaro vardı. Seçki kampaniyası təkcə iqtisadiyyat ətrafında aparılmırdı; ölkənin hansı siyasi istiqamətdə inkişaf edəcəyindən, sosial bərabərliyin necə təmin olunacağından, ABŞ və Çinlə münasibətlərin hansı xətt üzrə qurulacağından da söhbət gedirdi.

Lula üçün bu qələbə böyük siyasi dönüşdür. O, 2003-2010-cu illərdə iki dəfə prezident olub, 2023-cü ildə yenidən hakimiyyətə qayıdıb, indisə dördüncü prezidentlik müddətinə hazırlaşır. Ancaq qarşısında asan vəzifələr yoxdur. Seçicilərin təxminən yarısının Flavio Bolsonaroya səs verməsi ölkədə ciddi siyasi parçalanmanın qaldığını göstərir. Lula yeni müddətdə iqtisadi artımı, iş yerlərini, sosial təminatı və ölkənin beynəlxalq nüfuzunu gücləndirməyə çalışacaq. Əks halda onun qələbəsi siyasi rəqiblərinin qarşısında yalnız qısa müddətli üstünlük kimi qala bilər.

Macarıstanda isə seçkilər daha böyük siyasi dəyişiklik gətirdi. Aprelin 12-də keçirilən parlament seçkilərində Peter Magyarın rəhbərlik etdiyi TISZA Partiyası 199 yerlik parlamentdə 141 mandat qazandı. Viktor Orbanın 2010-cu ildən rəhbərlik etdiyi FIDESZ-KDNP bloku cəmi 52 mandatla kifayətləndi. Seçkilərdə iştirak 79,6 faiz oldu. Mayın 9-da Peter Magyar baş nazir kimi and içdi və bununla Orbanın 16 illik hakimiyyət dövrü başa çatdı. Bu hadisənin əhəmiyyəti Macarıstanın sərhədlərindən çox-çox uzağa gedir. Viktor Orban uzun illər Avropa İttifaqının Rusiya siyasətinə, Ukraynaya yardıma və Brüsselin bir sıra qərarlarına qarşı sərt mövqe tuturdu. O, Moskva ilə münasibətləri qorumağa çalışır, Avropa daxilində özünəməxsus siyasi xətt aparırdı. Peter Magyar isə Avropa ilə münasibətləri yaxşılaşdırmaq, dondurulmuş Avropa maliyyə vəsaitləri məsələsini həll etmək və dövlət idarəçiliyində dəyişikliklər aparmaq vədləri ilə seçicilərin dəstəyini qazandı.

Macarıstan seçkisində maraqlı məqam Peter Magyarın siyasi keçmişidir. O, vaxtilə FIDESZ çevrəsində olub, sonradan Orban hakimiyyətinin əsas tənqidçilərindən birinə çevrilib. Yəni Orbanın qarşısına kənardan gələn namizəd yox, onun siyasi sistemini yaxından tanıyan və həmin sistemdən qopmuş bir rəqib çıxdı. Bu, seçicilər üçün alternativ yaratdı. İndi əsas məsələ Magyarın verdiyi vədləri necə yerinə yetirəcəyidir. Brüssel Budapeştlə münasibətlərdə yeni səhifə açılmasını gözləyir. Ukrayna Macarıstanın Kiyevə münasibətinin dəyişəcəyinə ümid edir. Moskva üçünsə bu nəticə Avropada mühüm siyasi tərəfdaşlardan birinin mövqeyinin dəyişməsi deməkdir. Ancaq Macarıstanın xarici siyasətində dönüşün nə qədər sürətli olacağını zaman göstərəcək.

Serbiyada 25 oktyabr parlament seçkiləri daha fərqli mənzərə yaratdı. Aleksandr Vuçiçin rəhbərlik etdiyi siyasi düşərgə uzun illər ölkənin əsas siyasi qüvvəsi sayılırdı. Ancaq bu dəfə tələbələrin və onlara qoşulan vətəndaşların dəstəklədiyi "Tələbə siyahısı" böyük qələbə qazandı. Serbiya Seçki Komissiyasının 26 oktyabrda açıqladığı ilkin nəticələrə əsasən, tələbələrin siyahısı 52,71 faiz səs və 140 mandat əldə etdi. Vuçiçin "Vahid Serbiya" siyahısı isə 39,17 faiz səs və 104 mandat qazandı. Bu nəticələrin arxasında uzun müddətdən bəri davam edən narazılıq dayanır. 2024-cü ilin noyabrında Novi Sad şəhərində dəmir yolvağzalının dam örtüyünün uçması nəticəsində 16 nəfər həyatını itirdi. Hadisədən sonra tələbələr və minlərlə vətəndaş korrupsiya, dövlət qurumlarının məsuliyyəti və idarəçilikdə şəffaflıq tələbləri ilə küçələrə çıxdı. Etirazlar aylarla davam etdi. Tələbələr universitetlərdə dərsləri dayandırdılar, şəhərlərdə yürüşlər keçirib hakimiyyətdən məsuliyyət tələb etdilər. Serbiyada baş verənlər göstərdi ki, gənclər yalnız sosial şəbəkələrdə narazılıq bildirməklə kifayətlənməyə də bilərlər; onlar siyasi prosesin birbaşa iştirakçısına çevrilə və seçki yoluyla hakimiyyətin gələcəyinə təsir göstərə bilərlər.

Ancaq tələbə hərəkatının qarşısında indi daha çətin mərhələ dayanır. Etiraz etmək bir məsələdir, dövləti idarə etmək tamam başqa məsələ. Yeni siyasi qüvvə korrupsiyaya qarşı mübarizə, təhsil, iqtisadiyyat və dövlət qurumlarının fəaliyyəti ilə bağlı konkret proqram ortaya qoymalıdır. Serbiyanın xarici siyasəti də diqqət mərkəzində qalacaq. Belqrad Avropa İttifaqına üzvlük yolunu davam etdirmək, eyni zamanda Rusiya ilə münasibətləri qorumaq və Kosovo məsələsində mövqeyini saxlamaq istəyir. Yeni parlamentdə tələbə hərəkatının üstünlük qazanması bu məsələlərə yeni yanaşma gətirə bilər. Avropa İttifaqı isə Serbiyada baş verən dəyişikliklərin ölkənin demokratik institutlarını gücləndirəcəyinə ümid edir.

İsrail, İsveç, Almaniya və Bolqarıstan: seçkilərin arxasında təhlükəsizlik, miqrasiya və hakimiyyət böhranı

İsraildə 27 oktyabrda keçirilmiş parlament seçkiləri ölkəyə gözlənən siyasi sabitliyi gətirmədi. Baş nazir Benyamin Netanyahunun Likud Partiyası 27 mandat qazandı. Onun rəhbərlik etdiyi siyasi düşərgə ümumilikdə 53 yer əldə etdi. Gadi Eisenkotun rəhbərlik etdiyi müxalifət düşərgəsi 48 mandat qazandı. Ərəb partiyalarının ümumi mandat sayı isə 19 oldu. Knessetin 120 yerlik tərkibində hökumət qurmaq üçün 61 mandat lazımdır. Beləliklə, heç bir siyasi düşərgə təkbaşına hökumət yaratmaq üçün kifayət qədər yer qazana bilmədi. Seçkilərdə iştirak 77,9 faiz təşkil etdi. Bu nəticənin arxasında 7 oktyabr 2023-cü il hadisələrinin, Qəzza müharibəsinin, regional qarşıdurmaların və ölkənin təhlükəsizlik məsələlərinin yaratdığı ağır siyasi şərait dayanır. İsrail cəmiyyəti hökumətin müharibə siyasətinə, girovların taleyinə, ordunun fəaliyyətinə və 7 oktyabr hücumunun qarşısını ala bilməyən təhlükəsizlik sisteminin məsuliyyətinə fərqli yanaşır. Bir qrup seçici Netanyahunun müharibə dövründəki rəhbərliyini dəstəkləyir, digər qrup isə təhlükəsizlik sahəsindəki uğursuzluqlara görə hökumətin dəyişməsini istəyir.

Seçkilərin ən maraqlı tərəfi ərəb partiyalarının mövqeyidir. 19 mandat hökumət qurmaq üçün aparılan danışıqlarda ciddi əhəmiyyət daşıya bilər. Ancaq Netanyahunun ərəb partiyalarına arxalanan hökumət modelinə münasibəti sərtdir. Müxalifət daxilində də bu qüvvələrlə əməkdaşlıq məsələsi ətrafında fikir ayrılıqları var. Yəni İsraildə seçki qutuları bağlansa da, siyasi mübarizə hələ davam edir. Yeni Knessetin noyabrın 10-da fəaliyyətə başlayacağı gözlənir. İsrailin yeni hökumətinin kimlərdən qurulacağı Yaxın Şərq siyasətinə də təsir edəcək. Qəzza, Livan, İran, Suriya, ABŞ-la münasibətlər və Fələstin məsələsi yeni kabinetin qarşısında durası əsas problemlərdir. Bu səbəbdən İsraildə hökumətin formalaşması təkcə ölkənin daxili siyasi məsələsi kimi qalmayacaq.

İsveçdə 13 sentyabr parlament seçkiləri 349 yerlik Riksdaqın siyasi mənzərəsini dəyişdi. Sosial demokratlar 28,02 faiz səslə 99 mandat qazandılar. Mülayimlər partiyası 19,85 faiz və 70 mandatla ikinci, İsveç demokratları isə 17,48 faiz və 62 mandatla üçüncü yerdə qərarlaşdı. Seçkilərdə iştirak 84,9 faiz oldu. İsveçdə əsas müzakirələr təhlükəsizlik, miqrasiya, cinayətkarlıq, yaşayış xərcləri və sosial təminat ətrafında gedirdi. Ölkənin NATO-ya üzv olmasından sonra müdafiə və təhlükəsizlik məsələləri də seçicilərin diqqətində daha böyük yer tutmağa başlayıb. İsveç demokratlarının güclənməsi miqrasiya və milli təhlükəsizlik mövzularının cəmiyyətdə nə qədər ciddi müzakirə olunduğunu göstərir. Seçkilərdən sonra hökumətin formalaşdırılması prosesi də asan getmədi. Oktyabrın 29-da parlament sədri Andreas Norlen Mərkəz Partiyasının lideri Elizabet Tand Rinqvistin baş nazirliyə namizəd kimi irəli sürüləcəyini açıqladı. Bu, İsveçdə siyasi qüvvələrin yeni hökumət yaratmaq üçün apardığı danışıqların nə qədər mürəkkəb olduğunu göstərir. Seçkidə birinci yeri tutmaq hələ hökumətə rəhbərlik etmək üçün yetmir, parlamentdə çoxluğun dəstəyini qazanmaq lazımdır.

Almaniyada isə 2026-cı il seçkiləri federal parlament seçkisi yox, ayrı-ayrı federal torpaqlarda keçirilən regional seçkilər idi. Ancaq onların nəticələri kansler Fridrix Mertsin rəhbərlik etdiyi federal hökumət üçün ciddi siyasi siqnal oldu. Sentyabrın 6-da Saksoniya-Anhalt torpağında keçirilən seçkilərdə sağçı AfD 43,8 faiz səs topladı və 83 yerlik parlamentdə 39 mandat qazandı. CDU 17,2 faiz, SPD isə 9,3 faiz səs aldı. Sentyabrın 20-də Meklenburq-Ön Pomeraniyada AfD 38,2 faizlə birinci oldu. Berlin seçkilərində isə Sol Partiya 25,7 faiz səslə öndə qərarlaşdı. Bu nəticələr Almaniyada siyasi narazılığın artdığını göstərir. AfD-nin güclənməsinin arxasında miqrasiya siyasəti, iqtisadi çətinliklər, enerji qiymətləri, sənaye müəssisələrinin vəziyyəti və federal hökumətə inamsızlıq kimi səbəblər dayanır. Xüsusilə Almaniyanın şərq bölgələrində seçicilərin bir hissəsi özünü siyasi qərarlardan kənarda qalmış hiss edir. AfD də məhz bu narazılıqları siyasi kampaniyasının əsas mövzularına çevirir.

Almaniya Avropa İttifaqının ən böyük iqtisadiyyatıdır. Bu ölkədə sağçı qüvvələrin güclənməsi təkcə daxili siyasətə təsir göstərmir. Miqrasiya, Ukraynaya yardım, Rusiya ilə münasibətlər, Avropa təhlükəsizliyi və iqtisadi inteqrasiya məsələlərində Berlinin mövqeyi bütün Avropa üçün əhəmiyyət daşıyır. Ona görə də Almaniyadakı regional seçkilərin nəticələri Brüsseldə də diqqətlə izlənir.


Bolqarıstanda isə prezident seçkisinin birinci turu keçirildi. İliyana Yotova və Kiril Valçevin namizəd cütlüyü 34,76 faiz səslə birinci oldu. Andrey Gyurov və Georgi Kandev cütlüyü 31,95 faizlə ikinci yeri tutdu. Seçkilərdə iştirak çox aşağı səviyyədə qaldı. 6 milyon 584 min seçicidən yalnız 1 milyon 525 min nəfəri səsverməyə qatıldı. Bu, təxminən 23 faiz deməkdir. 67 mindən çox seçici isə heç bir namizədi dəstəkləmədiyini bildirdi. Bolqarıstanda əsas narahatlıq siyasi sabitliyin uzun müddətdir təmin olunmaması, hökumət böhranları və dövlət idarəçiliyinə inamın zəifləməsidir. Ölkə son illər tez-tez parlament seçkilərinə gedib, hökumətlərin ömrü qısa olub, siyasi qüvvələr arasında razılıq əldə etmək çətinləşib. Belə şəraitdə seçicilərin səsvermədən uzaq qalması cəmiyyətin siyasi proseslərdən yorulduğunu göstərən ciddi işarədir. Bolqarıstan Avropa İttifaqının və NATO-nun üzvüdür. Buna görə də Sofiyada formalaşan siyasi rəhbərliyin Avropa siyasəti, Rusiya ilə münasibətlər və regional təhlükəsizlik məsələlərində tutacağı mövqe xüsusi əhəmiyyət daşıyır.

Seçki qutuları dəyişiklik istəyini göstərir, amma xalqın etimadını qazanmaq daha çətindir

Bu ilin seçkilərinə birlikdə baxanda bir mənzərə ortaya çıxır: dünyanın müxtəlif ölkələrində insanlar siyasi rəhbərlikdən daha çox məsuliyyət, daha yaxşı həyat, təhlükəsizlik və konkret nəticə gözləyirlər. Braziliyada Lula qələbə qazandı, ancaq seçicilərin az qala yarısı onun rəqibinə səs verdi. Macarıstanda Peter Magyar Viktor Orbanın 16 illik hakimiyyətinə son qoydu. Serbiyada tələbələr siyasi səhnənin əsas qüvvəsinə çevrildilər. İsraildə seçkilər hökumət böhranını aradan qaldırmadı. Almaniyada AfD-nin yüksəlişi ənənəvi partiyalara xəbərdarlıq oldu. İsveçdə hökumət qurmaq üçün mürəkkəb danışıqlar başlandı. Bolqarıstanda isə seçicilərin böyük hissəsi səsverməyə gəlmədi.

Bəs bütün bunlar nə deməkdir? Əsas narahatlıq ondadır ki, bir çox ölkədə insanlar mövcud siyasi sistemin onların gündəlik problemlərinə yetərincə cavab vermədiyini düşünürlər. Qiymətlərin artması, işsizlik, miqrasiya, təhlükəsizlik, korrupsiya, müharibələr və gələcəklə bağlı qeyri-müəyyənlik seçicilərin qərarına təsir göstərir. Siyasi partiyalar seçkiqabağı çoxlu vədlər verir, amma seçici artıq yalnız söz eşitmək istəmir, nəticə görmək istəyir. Ayrı-ayrı ölkələrdə keçirilən seçkilər ilk baxışda bir-birindən uzaq görünsə də, hamısında eyni sual ortaya çıxır: hakimiyyət xalqın etimadını necə qazanıb, necə qoruyacaq? Gözlənti budur ki, seçkilərdən sonra yeni hökumətlər cəmiyyətdəki parçalanmanı daha da dərinləşdirmək əvəzinə insanları bir araya gətirən siyasət yürüdəcək. Braziliyada social-iqtisadi problemlərin həlli, Macarıstanda Avropa ilə münasibətlərin bərpası, Serbiyada korrupsiyaya qarşı real mübarizə, İsraildə təhlükəsizlik və siyasi sabitlik, İsveçdə sosial rifah, Almaniyada iqtisadi gücün qorunması, Bolqarıstanda isə dövlət institutlarına inamın qaytarılması əsas sınaqlar olacaq.

Bir məqamı da unutmaq olmaz: seçkidə qalib gəlmək xalqın bütün problemlərini həll etmək üçün verilən hazır cavab sayılmır. Bu, sadəcə yeni bir məsuliyyətin başlanğıcıdır. Bu gün seçici bir partiyaya səs verir, sabah onun gördüyü işə qiymət verir. Hakimiyyətin əsl sınağı da bundan sonra başlanır. 2026-cı ilin seçkiləri dünyaya bir mesaj verdi: insanlar dəyişiklik istəyirlər, ancaq dəyişiklik adı altında verilən vədlərdən daha çox gündəlik həyatlarında hiss edəcəkləri real nəticələr gözləyirlər. Seçki qutusunda qazanılan qələbə müvəqqətidir, xalqın etimadını isə hər gün yenidən qazanmaq lazım gələcək.



Kəramət Qənbərov,
Beynəlxalq hüquq üzrə ekspert

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressİnformMMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN



Səhiyyəmizin yeni uğur mərhələsi...

Transplantasiyada tarixi nailiyyət və yeni üfüqlər

Müasir tibbin ən mürəkkəb və məsuliyyətli əməliyyatlarından sayılan ürək transplantasiyası yalnız cərrahların peşəkarlığını deyil, həm də insan həmrəyliyini və cəmiyyətin donor mədəniyyətini özündə birləşdirir. 2025-ci il oktyabrın 31-də Azərbaycanda həyata keçirilən Qafqazın ilk meyit donorundan ürək köçürülməsi əməliyyatı ölkəmizin səhiyyə tarixində yeni səhifə açdı. Bu hadisə yalnız tibbi uğur deyil, həm də insan həyatına verilən dəyərin, həkim əməyinin və fədakarlığın ifadəsi kimi tarixə düşdü



Azərbaycan səhiyyəsinin tarixinə yazılan gün

2025-ci il oktyabrın 31-i Azərbaycan səhiyyəsi üçün əlamətdar tarixə çevrildi. Həmin gün Qafqaz regionunda ilk dəfə olaraq vəfat etmiş şəxsin ürəyi başqa bir insana köçürüldü. Əməliyyat Mərkəzi Klinikada professor Kamran Musayevin rəhbərlik etdiyi ixtisaslaşmış tibbi komanda tərəfindən həyata keçirildi.

Transplantasiya olunan ürək 2006-cı il təvəllüdlü, Tovuz rayonundan olan pasiyentə köçürüldü. Hadisənin ən mühüm məqamlarından biri isə donorun vəfat etmiş şəxs olması idi. Beləliklə, Azərbaycanda ilk dəfə meyit donorundan ürək transplantasiyası uğurla realaşdırıldı və ölkəmiz bu sahədə Qafqazda ilkə imza atdı.

Bu nailiyyət yalnız bir cərrahi əməliyyatın uğuru kimi qiymətləndirilməməlidir. Çünki ürək transplantasiyası uzunmüddətli hazırlıq, xüsusi tibbi infrastruktur, uyğun donorun müəyyənləşdirilməsi, orqanların koordinasiyası və əməliyyatdan sonrakı davamlı nəzarət tələb edən mürəkkəb prosesdir. Başqa sözlə, bu əməliyyat bütöv bir səhiyyə sisteminin hazırlığının sınağı idi.

Bir ailənin humanist qərarı, başqa bir ailənin yeni ümidi

Bu tarixi hadisənin arxasında təkcə tibbi komandanın peşəkarlığı deyil, həm də donor ailəsinin verdiyi çətin və humanist qərar dayanırdı. Səhiyyə Nazirliyi və Mərkəzi Klinikanın birgə məlumatına görə, Sabunçu Tibb Mərkəzində müalicə alan pasiyentdə beyin ölümü diaqnozu müəyyən edildikdən sonra məsələ Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinə bildirilib. Beyin ölümünün rəsmi təsdiqindən sonra mərhumun ailəsi orqanların bağışlanmasına razılıq verib. Məhz bu qərar başqa bir insanın yaşamaq şansına çevrilib. Burada mühüm bir məqamı xüsusi vurğulamaq lazımdır: beyin ölümü adi koma və ya dərin huşsuzluq vəziyyəti deyil. Müvafiq tibbi meyarlarla təsdiqlənən beyin ölümü insanın ölümünün hüquqi və tibbi təsdiqi deməkdir. Orqan donorluğunda bu fərqin düzgün izah edilməsi cəmiyyətin məlumatlandırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Qanunvericilik...

Orqan transplantasiyası yalnız tibbi imkanlarla deyil, ciddi hüquqi mexanizmlərlə tənzimlənən sahədir. Azərbaycanda bu münasibətlərin əsas hüquqi bazasını 1999-cu il oktyabrın 28-də qəbul edilmiş "İnsan orqan və və ya toxumalarının transplantasiyası haqqında" Qanun təşkil edir. Sonrakı illərdə qanunvericiliyə müvafiq dəyişikliklər edilib. Qanun transplantasiyanın əsas məqsədini insan həyatının xilas edilməsi və sağlamlığının bərpası kimi müəyyənləşdirir. Ürək də köçürülməsi mümkün olan orqanlar siyahısına daxildir.

Qanunvericiliyə əsasən, meyitdən orqan götürülməsi üçün bir neçə mühüm şərt nəzərə alınır:

- Şəxs sağlığında donorluğa yazılı razılıq veribsə, ölümündən sonra orqanlarından transplantasiya məqsədilə istifadə oluna bilər.

- Şəxs sağlığında bu barədə qərar bildirməyibsə, qanunun müvafiq müddəasına əsasən, yaxın qohumlarının və ya qanuni nümayəndələrinin icazəsi tələb olunur.

- Şəxs sağlığında donorluqdan yazılı şəkildə imtina edibsə, onun orqanlarının götürülməsinə yol verilmir.

- Orqanların götürülməsi yalnız ölümün, o cümlədən beyin ölümünün müvafiq həkim konsiliumu tərəfindən təsdiqlənməsindən sonra mümkündür.

Bundan başqa, qanun transplantasiya əməliyyatında iştirak edən həkimlərlə ölüm faktını təsdiqləyən mütəxəssislərin funksiyalarını da fərqləndirir. Belə ki, donorun ölümünün təsdiqində transplantoloqun və ya transplantasiya prosesinin təşkilində iştirak edən şəxsin iştirakı qadağandır. Bu tələb qərarların tibbi və etik baxımdan müstəqilliyini qorumağa xidmət edir.

Transplantasiya ediləcək şəxsin də hüquqları qanunla qorunur. Əməliyyat, bir qayda olaraq, resipiyentin yazılı razılığı ilə aparılır və ona gözlənilən ağırlaşmalar barədə məlumat verilməlidir. Yetkinlik yaşına çatmayan pasiyentlər üçün valideynin və ya qanuni nümayəndənin razılığı nəzərdə tutulur.



Qanun orqanların alqı-satqısını da qəti şəkildə qadağan edir. Yəni donorluq kommersiya fəaliyyəti deyil, könüllülük və insan həyatının qorunması prinsiplərinə əsaslanan humanist seçimdir.

Donor olmaq istəyənlərin sayı artır

Ürək transplantasiyasının uğurla həyata keçirilməsi Azərbaycanda donorluq məsələsinə ictimai marağı artırıb. Lakin bu sahədə əsas problemlərdən biri hələ də uyğun donorların sayının transplantasiyaya ehtiyacı olan insanların tələbatına uyğun gəlməməsidir.

31 oktyabr 2026-cı il tarixli məlumata görə, Azərbaycanda 1800 vətəndaş ölümündən sonra orqanlarının bağışlanması üçün reyestrdə qeydiyyatdan keçib. Bu barədə Orqan Donorluğu və Transplantasiya üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri Yeganə Abbasova məlumat verib. Onun açıqlamasına görə, həmin şəxslər beyin ölümü keçirdikləri halda, sağlıqlarında verdikləri rəsmi razılıq əsasında orqanlarının transplantasiyada istifadəsinə imkan yaradırlar. Belə hallarda ailənin əlavə razılığına ehtiyac qalmır.

Məsələnin digər tərəfi isə donor gözləyən xəstələrin sayıdır. Yeganə Abbasovanın bildirdiyinə görə, hazırda ölkədə 1500-dən çox insan orqan transplantasiyası üçün növbə gözləyir. Onlardan 50-dən çoxu ürək transplantasiyasına ehtiyacı olan şəxslərdir. O, həmçinin hər il qaraciyər transplantasiyası gözləyən 50-60 xəstənin həyatını itirdiyini qeyd edib.

Bu rəqəmlər bir daha göstərir ki, transplantasiya sahəsində əldə olunan tibbi nailiyyətlərin davamlı nəticə verməsi üçün donor bazasının genişləndirilməsi vacibdir. Çünki ən müasir avadanlıq və ən təcrübəli cərrah belə uyğun donor olmadan transplantasiya əməliyyatını həyata keçirə bilməz.

Tibbi nailiyyətin davamı üçün nə lazımdır?

İlk ürək transplantasiyasının həyata keçirilməsi Azərbaycanda bu sahənin inkişafı üçün mühüm başlanğıc olsa da, qarşıda görüləsi işlər az deyil. Əsas məsələlərdən biri donor olmaqla bağlı ictimai maarifləndirmənin genişləndirilməsidir. Ürək transplantasiyası digər orqanların köçürülməsindən fərqli olaraq, xüsusilə, həssas zamanlama və uyğun donor tələb edir. Donorun ürəyinin tibbi baxımdan yararlı olması, resipiyentin vəziyyətinin qiymətləndirilməsi, uyğunluğun müəyyənləşdirilməsi, orqanın vaxtında götürülməsi və köçürülməsi vahid koordinasiya tələb edən prosesdir.

31 oktyabr 2026-cı ildə ilk əməliyyatın birinci ildönümü münasibətilə keçirilən tədbirdə professor Kamran Musayev Azərbaycanda transplantasiya sahəsində irəliləyişin davam etdiyini bildirib. Onun açıqlamasına görə, 2025-ci ilin oktyabrından 2026-cı ilin oktyabrınadək ölkədə artıq dörd ürək transplantasiyası həyata keçirilib. Professor ürək transplantasiyası gözləyənlər arasında azyaşlı uşaqların da olduğunu, xəstələrin yaşının 4-5-dən 60-a qədər dəyişdiyini diqqətə çatdırıb.

Bu fakt problemin yalnız tibbi deyil, həm də sosial tərəfinin olduğunu göstərir. Donor gözləyənlər arasında uşaqların olması məsələnin aktuallığını daha da artırır. Hər bir gecikmə bir insanın müalicə imkanlarına təsir göstərə bilər.

Donorluq mədəniyyəti...

Azərbaycanda donor olmaq istəyənlərin sayının artması müsbət tendensiyadır. Donorluqla bağlı cəmiyyətdə mövcud olan yanlış təsəvvürlərin aradan qaldırılması, beyin ölümü anlayışının düzgün izah edilməsi, qanunvericiliyin insanlara çatdırılması vacibdir. İnsanlar bilməlidirlər ki, donor olmaq könüllü qərardır və bu qərar heç bir halda maddi maraqla əlaqələndirilə bilməz.

Media, səhiyyə qurumları və ictimaiyyət nümayəndələri bu istiqamətdə mühüm rol oynaya bilərlər. Xüsusilə real transplantasiya hekayələrinin ictimaiyyətə çatdırılması, əməliyyatdan sonra insanların həyat keyfiyyətində baş verən dəyişikliklərin işıqlandırılması donor mədəniyyətinin formalaşmasına töhfə verə bilər.

Yeganə BAYRAMOVA

"Korkut Ata" Türk Dünyası Film Festivalında...



Türkiyənin İstanbul şəhərində 6-cı "Korkut Ata" Türk Dünyası Film Festivalının açılış mərasimi keçirilib.

Tədbirdə TÜRKSOY-un baş katibi Sultan Raev, türk dövlətlərinin mədəniyyət nazirliklərinin rəsmiləri, film istehsalçıları, kino ictimaiyyəti və media mənsubları iştirak ediblər.

Açılışda türk dövlətlərinin ortaq tarixi və mənəvi bağlarının kino sahəsində də özünü göstərdiyi qeyd olunub. Festivalın əsas proqramı açıqlanıb və münsiflər heyətinin üzvləri təqdim olunub.

Tədbirin sonunda qırğız rejissor Kanıbek Kalmatovun "Aytmatov" filmi nümayiş olunub.

Noyabrın 7-dək davam edəcək festivalın müsabiqə proqramında Azərbaycandan tammetrajlı bədii film kateqoriyasında "Tağıyev: Məktəb", sənədli film kateqoriyasında "Azıx mağarası", qısametrajlı bədii film kateqoriyasında isə "Torpağı sanı yaşayasan" filmləri iştirak edir.

Bundan əlavə, festival çərçivəsində "Bir cənub şəhərində" tammetrajlı bədii və "Bakı Türkoloji Qurultayı 100" sənədli filmləri müsabiqədənkənar proqramda nümayiş olunacaq.

Qeyd edək ki, festival çərçivəsində 10 ölkə və 10 muxtar respublikadan 56 film tamaşaçıların ixtiyarına veriləcək. Festivalda qonaq qismində 150 xarici, 300 yerli kino xadimi iştirak edir. Azərbaycan festivalda kino xadimlərindən və Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Kino Agentliyinin nümayəndələrindən ibarət 20 nəfərlik heyətlə təmsil olunur.



2021-ci ildə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsis olunan festivalın məqsədi türkdilli ölkə və xalqlarının ortaq mədəni irsini kino vasitəsilə dünyaya nümayiş etdirməkdir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4286
Sifariş: 1478
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova